Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

11-ci cild

27 noyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 12

*Milli Məclisin iclas salonu.*
*27 noyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 115 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.00 dəq.) |
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Himalay Məmişov**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri.

**Rövnəq Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Toğrul Hüseynov**, Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

**Rəşad İsmayılov**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin birinci müavini.

**Tapdıq Əmiraslanov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**İlhamə Qədimova**, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.

**İdris İsayev**, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini.

**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Kamal Abbasov**, Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Hidayət Əzimov**, Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini.

**Natiq Şirinov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Elşad Əliyev**, Azərbaycan Respublikası Diasporla İş

üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Gündüz İsmayılov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Əziz Şərifov**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**İlqar Gülməmmədov**, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini.

**Nigar Bayramova**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini.

**Orxan Nəzərli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi.

**Samirə Musayeva**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Nicat İmanov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Elşən Rəhimli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Hüseyn Hüseynov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Bəxtiyar Əsgərov,** Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci

il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

12. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ceyhun Məmmədov, Razi Nurullayev, Ramil Həsən, Bəxtiyar Əliyev, Jalə Əliyeva, Aydın Hüseynov, Rövşən Muradov, Zahid Oruc, Mahir Süleymanlı, Arzuxan Əli-zadə, Səyyad Salahlı, Günay Ağamalı, Tənzilə Rüstəmxanlı, Sahil Babayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**2. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Musa Quliyev, Razi Nurullayev, Fatma Yıldırım, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Fazil Mustafa, Fariz İsmayılzadə, Elnarə Akimova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**6. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**7. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**8. "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əhliman Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**9. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Firudin Hacıyev, Gülşən Paşayeva, Siyavuş Novruzov, Elşad Musayev

**11. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Gülməm-
mədov

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*27 noyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, hörmətli media nümayəndələri, hamınızı salamlayıram. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.00 dəq.) |
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

Yetərsay var, sağ olun.

Xahiş edirəm, dünənki siyahını verin, çıxışlar yarımçıq qalmışdı. Mən indi siyahı üzrə hörmətli həmkarlara bir-bir söz verəcəyəm.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm.

**Sədrlik edən.** Ceyhun müəllim, bircə dəqiqə, üzr istəyirəm. Reqlament 5 dəqiqə. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli hökumət üzvləri. Ötən ilin büdcəsində olduğu kimi, bu ilin büdcəsində də ölkə əhalisinin rifahının yüksəldilməsi, pensiya və müavinətlərin, şəhid ailələrinə və müharibə iştirakçılarına diqqət və qayğının artırılması prioritet istiqamətlərdən biri kimi götürülüb. Bu, həm də dövlətimizin bu sahəyə diqqət və qayğısının daha bir göstəricisidir.

Bu gün Azərbaycan dünyada şəhid ailələrinə və müharibə iştirakçılarına ən yüksək diqqət və qayğı göstərən azsaylı ölkələrdən biridir. Onu da qeyd edim ki, bütün görüş və qəbullarda şəhid ailələri Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini bildirirlər.

Qeyd olunanlarla yanaşı, sosial sahə ilə bağlı vətəndaşlardan daxil olan müraciətlər əsasında bir sıra təklifləri səsləndirmək istəyirəm.

1. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023–2024-cü tədris ili üzrə 1-ci sinfə 132 min 261 uşaq qəbul olunduğu halda, 2022–2023-cü tədris ilində ölkənin ümumtəhsil məktəblərinin 1-ci sinfinə 137 min 862 uşaq gedib. Məktəbə gedən uşaqların sayında təxminən 6000-ə yaxın azalma var. Bölgələrdə bu problem özünü daha qabarıq göstərir. Ailələrdə və məktəbə gedən uşaqların sayında azalma açıq müşahidə olunur. Bütün bunlar çoxuşaqlı və aztəminatlı ailələrə əlavə maddi dəstək mexanizmləri barədə düşünməyi zəruri edir.

2. Bu gün müharibə iştirakçılarına ayrılan vəsait cəmiyyətdə ən geniş müzakirə olunan məsələlərdən biridir. Mə-

lum məsələdir ki, burada yüz minlərcə insandan və böyük vəsaitdən söhbət gedir. Bu məsələ ilə bağlı təklif irəli sürmək istəyirəm. Hazırda döyüşlərdə qısa və uzun müddət iştirak edən iştirakçılar arasında fərq yoxdur. Qeyd olunanları nəzərə alaraq, müharibə iştirakçıları arasında qruplaşdırmanın aparılmasını təklif edirəm.

Düşünürəm, döyüşlərdə qısa müddət iştirak edən müharibə iştirakçıları ilə uzun müddət iştirak edənlər arasında fərqin müəyyənləşdirilməsi daha ədalətli olardı. O zaman müəyyən kateqoriyalara ayrılan vəsaitin nəzərdən keçirilməsinə də baxa bilərik.

3. Gələcəkdə qadınların pensiya yaşlarına yenidən baxılması. Bu gün reallıq ondan ibarətdir ki, müəyyən bir yaşa gəldikdən sonra insanlar iş tapmaqda əziyyət çəkirlər. Cəmiyyətin bu məsələdən ən çox əziyyət çəkən üzvləri qadınlardır. Bu məsələ bir çox qəbullarda davamlı olaraq bizim qarşımızda qaldırılır və bununla bağlı çoxlu müraciətlər var.

4. Sağlamlıqlarını itirən vətəndaşların təkrar müayinəsi ilə bağlı prosedurların sadələşdirilməsi. Əgər bir insan qolunun və ya ayağının birini itiribsə, onun təkrar müayinələrə cəlb olunmamasını təklif edirəm. Bu məsələ ilə bağlı da bizə çoxlu sayda müraciətlər var.

5. Bu ilin büdcəsində dəfn puluna ayrılan vəsaitin artırılması təqdirəlayiqdir. Ancaq düşünürəm, prosesin elektronlaşdırılmasına ehtiyac var. Bu qədər sənədi əldə etmək üçün vətəndaşlar bir sıra hallarda çətinlik çəkirlər. Prosesi elektronlaşdırmaqla daha da sürətləndirə bilərik. Onsuz da müvafiq strukturlar tərəfindən dünyasını dəyişən insanların qeydiyyatı tez bir zamanda həyata keçirilir və həmin məlumat əsasında prosesi elektronlaşdıra və sürət-

ləndirə bilərik.

Sonda layihəni dəstəklədiyimi və səs verəcəyimi bildirirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Ceyhun müəllim. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, hökumət üzvləri. Mənim dediklərim, təbii ki, tənqid deyil, təkliflərdir. Mən əmək və əhalinin sosial müdafiəsi nazirinin vəzifəsini anlayıram və bilirəm ki, bu vəzifədə işləmək tənqid və qərəz obyektinə çevrilmək deməkdir. Belə bir vəzifə yükünü daşımaq asan deyil.

Hər kəsə məlumdur ki, ünvanlı dövlət sosial yardımı almaq üçün şərtlər ağırdır. Bu il müəyyən yüngülləşmə aparılıb, amma yenə də ciddi çətinliklər qalmaqdadır. Doğrudan da, ehtiyacı olanlar ala bilmir və dəfələrlə bunun şahidi oluram. Səbəb isə şərtlərin ağır olması və bəzən də ehtiyacı olan insanlar tərəfindən bu şərtlərin yerinə yetirilməsinin obyektiv və subyektiv səbəblərdən mümkün olmamasıdır. Bilirəm ki, nazirlik hazırda pilot layihə həyata keçirir və məsələnin ədalətli həlli üçün çalışır. Əlilləri bir-bir ziyarət edir, məlumat toplayırlar ki, məsələ avtomatlaşsın. Amma bu, neçə il çəkə bilər? Mən düşünmürəm ki, bu variantın effektivliyi gözlədiyimiz qədər ola bilər. Mən istərdim ki, imkan varsa, hörmətli Sahil müəllim bu barədə məlumat versin.

Digər həll yolları varmı? Var. Hər bir rayon, kənd və qəsəbədə icra hakimiyyəti və nümayəndələri var. Onlar kimin ehtiyac içində olduğu, gəliri, evinin olub-olmaması, vəsaiti, haradan nələr aldığı barədə məlumatlara malikdirlər. Onların arayışı bəs etməzmi? Əgər onlar yalan məlumat verirsə, bu, icra hakimiyyətlərinin və əməkdaş-

ların üzərində ciddi məsuliyyət yarada bilər. Hətta qanunvericilikdə də bununla bağlı hər hansı bir dəyişiklik etmək mümkündür.

Digər tərəfdən, indi elə zamandır ki, yanlış adam ünvanlı sosial yardım alarsa, elə birinci, öz ətrafı, qohum-əqrəbası, qonşuları, tanıyanlar sosial şəbəkələrdə onu rüsvay edərlər. Nazirliyin imkanları var ki, 2-3 günlük missiyalar göndərib qəfil yoxlamalar həyata keçirsin. Nazirlik sonunda kiməsə inanmalıdır. Nazirliyin yanında İctimai şura da var. Düşünürəm ki, İctimai şura da ayda bir neçə dəfə, məsələ həllini tapana qədər səfərlər edib məlumatları aydınlaşdıra, yaxud təqdim edə bilər. Bu cür yanaşma həm də imkan verəcək ki, ünvanlı sosial yardım, doğrudan da, ehtiyacı olanlara verilsin. Burada hansı problemlər var və bu məsələlər hansı dövlət qurumları tərəfindən həll olunmalıdır? Onlar da işçi qaydada həmin qurumlara təqdim oluna bilər. Məhz bu problemlər nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işini doğru-düzgün yerinə yetirə bilmir.

Daha bir təklifim isə nazirliyin özünün hüquqi yardım göstərməsidir. Məqsəd kömək etmək deyilmi? O qədər qanunlarımız, qaydalar, istisnalar və sair olsa da, bəzən problemdən baş çıxarmaq mümkün olmur. Yaxşı olar ki, Vəkillər Kollegiyası ilə müqavilə bağlansın və onlar hər bir rayonda ehtiyacı olanlara bu köməkliyi göstərsinlər. Mən komitə iclasında da bu məsələni qaldırmışdım. Düşünürəm ki, hüquqi yardımla bağlı çox ciddi işlər aparılmalıdır.

Hörmətli Sahil müəllimdən bir xahiş də etmək istəyirəm. Ünvanlı sosial yardımın verilməsi üçün yoxlama aparılan zaman vətəndaşların ləyaqətini alçaltmamaq na-

minə onların soyuducularını yoxlamasınlar, qazanlarının içinə baxmasınlar. Yəni belə məsələlərlə bağlı dəfələrlə şikayətlər olub və mən də bunun şahidi olmuşam. Təbii ki, bu, nazirliyin göstərişi deyil. Amma ayrı-ayrı fərdlərin bu cür yanaşması vətəndaşlara yaxşı təsir göstərmir. Həm də ola bilsin ki, yaxınlarından kimlərsə onlara yardım göstərir. Məsələn, bir kisə un, biri bir kisə kartof gətirib verir. Bu, onun sosial yardım alıb-almaması üçün göstərici olmamalıdır.

Digər sahələr üzrə də təkliflərimi vermək istəyirəm. Bu gün əlillik tələbi ilə müraciət edən onlarca qazimiz var. Onlarla danışmaq, nəyisə izah etmək, təbii ki, çətin olur. Çünki onların canı ağrıdığına görə, psixoloji travma və ehtiyac ucbatından əlillik haqlarının olduğuna inanırlar. Ən azı 4-5 dəfə elə bu tribunadan təklif verdim ki, yaralanmış, psixoloji travması olan, hələ də müalicəsi gedən müharibə iştirakçılarına 2-3 illik aylıq müavinət təyin olunsun. Buna bu gün də ehtiyac duyuram. Çünki onların müalicəsi dövlət tərəfindən aparılsa da, yaşayış, ailə, dərmanların alınması, nəqliyyat və digər xərcləri var. O xərcləri aldıqları 80 manatla ödəmək mümkün deyil. Onun üçün 80 manatın 2 dəfə artırılması ilə bağlı ehtiyac və tələb var. Bununla bağlı verdiyimiz suallara hökumət üzvləri komitə müzakirələrində də cavab vermədilər.

Digər təklifim qazilərin işsizliyi ilə bağlıdır. Demək olar ki, böyük əksəriyyətinin ali təhsili yoxdur və bu, onların yaxşı bir işə düzəlməsinə imkan vermir. Bu təklifi 2 dəfə səsləndirmişəm. Yenə də təklif edirəm ki, nazirliklə ali təhsil müəssisələri arasında razılaşma əldə olunsun və nazirliyin nəzdində 1-2 illik xüsusi təhsil proqramları yaradılsın. Hökumət buradan irəli gələn məsələləri də həll

edə bilər. Bu, sosial narazılıqların aradan qaldırılmasında əsaslı rol oynaya bilər. Bu məsələ barədə də fikirlərinizi öyrənmək istərdim.

Sonuncu isə, məşğulluq xidməti ilə bağlı demək istəyirəm. Özünüməşğulluq proqramının daha sərfəli və məntiqli olması üçün onun biznes şirkətləri ilə birlikdə olmasını təklif edirəm. Nazirlik biznes qurumu deyil və istərdim ki, dayanıqlılığın təmin edilməsi naminə özünüməşğulluq proqramı üzrə vəsaiti iş adamlarına ayırsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ramil Həsən. Buyurun.

**Ramil Həsən.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, dəyərli hökumət üzvləri, hər birinizi salamlayıram. Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, intibah və inkişaf büdcəsi olan 2025-ci ilin dövlət büdcəsinin məntiqi davamı kimi nəzərdə tutulmuş Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üçün büdcə layihəsinə mən də səs verəcəyəm və büdcə layihəsini dəstəkləyirəm. İşsizlikdən sığorta fondu ilə bağlı olan təklifi də büdcə layihəsində dəstəkləyəcəyik.

İcazənizlə, bir neçə konkret istiqamətdə vətəndaşların qarşımızda qaldırmış olduğu məsələləri sizlərlə bölüşmək istəyirik. Burada hörmətli millət vəkillərimiz də qeyd etdilər. Birincisi, Vətən müharibəsi iştirakçıları bizə müraciət edirlər, təbii ki, dövlətimizin inkişaf strategiyası çərçivəsində onların 80 manat nəzərdə tutulmuş aylıq müavinətlərində müəyyən artım nəzərə alınsın.

Eyni zamanda, hörmətli Sahil müəllimin iştirakından istifadə edərək vurğulamaq istəyirəm ki, ən böyük problem əlillik dərəcəsinin verilməsi ilə bağlıdır. Sadələşdirilmiş rejimə, sistemə keçilsə, bu, çox böyük fayda

gətirəcək. Niyə? Çünki çoxlu sayda sənədlərin toplanması lazım gəlir. Eyni zamanda, bilavasitə şahidi olduğum bir məsələ var ki, bir nəfərə Dövlət Neft Şirkəti tərəfindən artıq işsizlik qabiliyyətini təsdiq edən sənəd verilib, müalicə olunub, əlillik dərəcəsi alıb, 6 il ərzində bu adam əlil olaraq rəsmi şəkildə pensiya, təminat alıb. Daha sonra bir anda bunun pensiyası kəsilib. İndi Dövlət Neft Şirkəti də bunu işlə təmin etmir. Niyə? Çünki artıq bu şəxs iş qabiliyyətini itirib. Ümumiyyətlə, belə vəziyyətləri ortadan qaldırmaq üçün bu gün çox uğurla davam edən "ASAN" sisteminin, məncə, əlillik dərəcələrinin müəyyənləşdirilməsində də tətbiq edilməsi, yəni "bir pəncərə" və sürətli şəkildə sadələşdirilmiş rejimə keçilməsi vətəndaşlarda böyük bir məmnuniyyət hissi yaradardı.

Həmçinin dünən dəyərli millət vəkillərimizdən biri bu məsələni vurğuladı – fərdi məşğulluqla bağlı verilən materialların və eyni zamanda, canlı heyvanların sığortalanması vətəndaş, belə desək, qarşılaşa biləcəyi sürpriz problemlərdən qurtarmış olardı. Eyni zamanda, dövlətimizin vəsaiti də əbəs yerə xərclənməzdi.

Eyni zamanda, fürsətdən istifadə edərək DOST mərkəzi ilə bağlı vurğulamaq istəyirəm ki, 2025-ci ildə imkan olacağı təqdirdə, bu günə qədər vətəndaşlar üçün çox böyük fayda gətirdiyini nəzərə alaraq, mənim təmsil etdiyim Ucar rayonunda da belə bir DOST mərkəzinin yaradılması və formalaşdırılması çox məqsədəuyğun olardı.

Bir də, hörmətli, dəyərli millət vəkilləri, fürsətdən istifadə edərək çox vacib bir məqamı da qeyd etmək istəyirəm. Bu da işsizlikdən sığorta ilə bağlıdır. Ümumiyyətlə, əgər biz çalışsaq və dövlət–özəl əməkdaşlığı çərçivəsində, xüsusi ilə də regionlarda, – mən konkret olaraq

Ucar rayonunu qeyd etmək istəyirəm, – Ucar rayonunda, məsəl üçün, yeni iş yerlərinin yaradılması ilə bağlı təşviqedici layihələr həyata keçirsək, əslində, işsizlikdən sığorta ilə bağlı o fonda toplaşmış aktivlər dövlətin başqa çox faydalı istiqamətlərinə yönləndirilə bilər. Niyə? Çünki əgər biz bir insana iş şəraiti yaradırıqsa və minlərcə insan kimi işləyirsə, təbii ki, artıq biz ona işsizlikdən sığorta ilə bağlı hər hansı bir müavinət ödəmək məcburiyyətində də deyilik. Bu, bir məntiqdir və xahiş edirəm ki, gələcəkdə bunları nəzərə alaq.

Eyni zamanda, fürsətdən istifadə edərək çox vacib bir məqamı qeyd etmək istəyirəm, dünən dövlət büdcəsi çərçivəsində müzakirədə imkan tapıb deyə bilməmişdim. Mən İqtisadiyyat Nazirliyinə və dövlətin müvafiq qurumlarına müraciət edirəm. Bilirsiniz ki, Ucar rayonu tamamən düzəngah bir ərazidə, beynəlxalq İpək yolunun tam ortasında yerləşir. Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan kimi irimiqyaslı layihələr, bütün neft kəmərləri, eyni zamanda, həm dəmir yolu, həm də bütün nəqliyyat və daşımalarla bağlı mükəmməl bir habdır, mükəmməl bir logistik mərkəzdir. Bu baxımdan da, gələcəkdə dövlət–özəl əməkdaşlığı çərçivəsində respublika əhəmiyyətli böyük bir müəssisənin Ucar rayonunda salınması həm o sahəyə dəstək verəcək özəl sektora kömək etmiş olar, həm də şübhəsiz ki, minlərcə vətəndaşın işlə təminatına şərait yaratmış olar. Bu da bir çox problemlərin həlli demək olacaq.

Fürsətdən istifadə edərək bir daha həm dünənki dövlət büdcəsinin uğurla həyata keçiriləcəyinə ürəkdən inandığımı bildirmək istəyirəm, həm də bu gün müzakirə etmiş olduğumuz Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun da büdcə layihələrini dəstəklədiyimi

bildirmək istəyirəm. Çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli deputatlar. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında və İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihələrində əvvəllər Milli Məclisdə qaldırılmış məsələlərin bir qisminin həlli istiqamətində işlərin görülməsi də nəzərdə tutulur.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, bu sahədə həyata keçirilən uğurlu islahatlar öz müsbət nəticəsini verir və vətəndaşların sosial müdafiəsi günü-gündən daha da möhkəmləndirilir. Sadəcə olaraq, 2 faktı müqayisə etmək istərdim. Büdcədən də görünür ki, əməkhaqqı fondu təqribən 9 milyard manatdırsa, əhalinin sosial müdafiəsinə yönəldilən vəsait təqribən 6 milyard manata yaxındır. Bu, olduqca böyük bir rəqəmdir və bugünkü Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, əlbəttə, imkan verir ki, əhalinin sosial müdafiəsi üçün bu qədər böyük miqdarda vəsait cəlb edilsin.

Digər bir fakta diqqət yetirsək, məsələn, əmək pensiyalarının ödənilməsinə 7 milyard 210 milyon 530 min manat  və ya büdcənin təqribən 19 faizi həcmində vəsaitin ayrılması proqnozlaşdırılır. Bu da bir daha onu göstərir ki, vətəndaşın və xüsusi ilə həssas kateqoriyadan olan əhalinin sosial müdafiəsi dövlətin diqqət mərkəzindədir və dövlət bunun üçün bütün imkanlardan istifadə edir.

İşsizlikdən sığorta fondunun 2025-ci il üzrə xərcləri 260 milyon 700 manat məbləğində nəzərdə tutulub. İşsizliyə görə sığorta  ödənişləri 17 milyon manat təşkil edir. Bu məbləğin çox və ya az olduğunu demək çətindir.

Çünki insanların vəziyyəti yaxşılaşdıqca daha keyfiyyətli həyata tələbatı artır. Bu baxımdan da bu rəqəmlərin, əlbəttə ki, hər dəfə daha da artırılması tələb edilir. Lakin fond tərəfindən özünüməşğulluğun əhatə dairəsinin genişləndirilməsini və bu tədbirlərin təşkili üçün 77 milyon manat vəsaitin ayrılmasını təqdirəlayiq hal hesab edirik. Bu layihə öz müsbət nəticələrini verir və əhalinin özünüməşğulluğunu, daha fəal iqtisadi artımda iştirak etməsini təmin edir.

Amma yaxşı olar ki, yeni iş yerlərinin yaradılması üçün mikro sahibkarlığın stimullaşdırılması məqsədi ilə digər qurumlarla birlikdə kreditlərin verilməsi qaydalarına yenidən baxılsın. Yeni sahibkarlıq subyektlərinin fəaliyyəti həm İşsizlikdən sığorta fondunun ödənişlərini artırar, həm də büdcənin bu istiqamətdə yükünü xeyli azalda bilər.

Yeni iş yerlərinin yaradılmasında bazarın tələblərinə uyğun peşə hazırlığı və əlavə təhsilin təşkili olduqca vacib bir məsələdir. Qanun layihəsində bu tədbirlərə 35 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Hesab edirəm ki, iqtisadiyyatın sürətli inkişafı yeni peşələrin yaranmasını da sürətləndirir. Bu baxımdan peşə standartlarının və buna uyğun olaraq təhsil proqramlarının hazırlanması işi sürətləndirilməlidir. Çünki bu gün mövcud olan bir çox peşələrə tələbat azalır, əvəzində isə yeni peşələr yaranır. Yaxın gələcəkdə insanların yeni peşələr üzrə yenidən hazırlanmasının geniş miqyas alacağı proqnozlaşdırılır. Əmək bazarında rəqabətə davamlı mütəxəssislərin hazırlanması bu gün bir nömrəli vəzifə kimi qarşımızda dayanır. Bu istiqamətdə maliyyə vəsaitlərinin cəlb edilməsinə diqqət artırılsa, yaxşı olardı.

Bir məsələyə də toxunmaq istərdim. Ağdam rayon Mah-

rızlı kənd sakini 2-ci qrup əlil Ədalət Vəliyev müraciət edərək bildirir ki, – qızı 3-cü qrup əlildir, – həyat yoldaşı vəfat edib, lakin bu günə qədər də dəfn pulunu ala bilmir.

Dəfn üçün büdcə layihəsində 40 milyon manat nəzərdə tutulub. Məbləğ kifayət qədər böyükdür. Amma göründüyü kimi, bu vəsait heç də bütün vətəndaşlara verilmir. Ola bilsin ki, qaydalarda nəzərdə tutulan meyarlar buna imkan vermir. Amma yaxşı olar ki, sosial baxımdan həssas əhali kateqoriyası üçün bu məsələyə yenidən baxılsın.

Bütövlükdə, hər iki büdcə layihəsi tələblərə uyğun yüksək səviyyədə hazırlanıb və qarşıya qoyulmuş vəzifələrin həllini təmin edə bilər. Qanun layihələrini müsbət qiymətləndirir və həmkarlarımı ona səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Müzakirə etdiyimiz hər iki qanun layihəsi və ümumilikdə, 2025-ci ilin büdcə layihəsi ətrafında istər komitə iclaslarında, istərsə də 3 gündür davam edən plenar iclaslarda səsləndirilən fikirlər bir daha bunu deməyə əsas verir ki, bu büdcə zərfi sosial-iqtisadi inkişafın vacib göstəricilərindən biridir. Biz hər yeni büdcəni müzakirə edərkən bir daha ölkəmizin inkişafının şahidi oluruq.

Azərbaycan bütün sahələrdə olduğu kimi, sosial sahədə də böyük uğurlara imza atıb. Ölkədə Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə sosial sahədə inqilabi dəyişikliklər edilib. 2025-ci ilin büdcə layihəsi də bir daha öz sosial yönümlülüyü, sosial yüklülüyü ilə diqqət çəkir və ötən illərdə əldə edilən uğurların davamı kimi qiymətləndirilməlidir.

Mən, əlbəttə, hər iki qanun layihəsinə səs verəcəyəm.

Eyni zamanda, sosial sahə ilə bağlı tez-tez qarşılaşdığımız məsələlərdən ikisi haqqında mülahizə və təkliflərimi səsləndirmək istəyirəm.

Mən Azərbaycanın Aran zonasından 3 rayonu – Zərdab, Kürdəmir, Ucar rayonlarını təmsil edirəm. Mütəmadi olaraq, ayda ən azından 2 dəfə keçirdiyimiz qəbullarda, görüşlərdə vətəndaşların daha çox qaldırdıqları və həllini gözləyən məsələlər var. Hörmətli həmkarım Ramil Həsən bir az əvvəl artıq zonanın müəyyən problemlərini sadaladı. Həqiqətən, ən sıx qarşılaşdığımız problem işsizliklə bağlıdır. Bölgələrdə, xüsusi ilə ucqar kəndlərdə vətəndaşın işlə təminində böyük çətinliklər yaşanır. İşsizlik bölgələrdə bir nömrəli problem kimi özünü göstərir. Qəbula gələnlərin 70-80 faizi iş təmini ilə bağlı köməklik istəyir. Məlumdur ki, əhalinin kütləvi şəkildə işləyə biləcəyi müəssisələr hər bölgədə, hər kənddə mövcud deyil. Vətəndaş, bir qayda olaraq, bölgələrdəki qaz, su, işıq, yol idarələrində, məktəbdə, bağçada, xəstəxanada, sanitar-epidemioloji mərkəzdə və sair bu qəbildən dövlət hesablı müəssisələrdə texniki işçi olaraq işə düzəlmək istəyir. Lakin həmin təşkilatların işəgötürmə imkanları da hüdudsuz deyil axı. Hər kənddə ən yaxşı halda 5-10 nəfər yuxarıda sadaladığımız müəssisələrdə işləmək şansı qazanır. Bu halda kəndliyə işi necə təmin etməliyik?

Biz ötən gün komitə iclasında da bildirdik. Bölgələrdə əmək bazarını tənzimləmək üçün həmin ərazinin coğrafiyası, təbiəti, torpağının yararlılıq dərəcəsi, yeraltı və yerüstü sərvətləri, demoqrafik göstəriciləri və sair spesifik xüsusiyyətləri nəzərə alınaraq, istehsalat müəssisələrinin açılması artıq bir zərurətə çevrilib. Bu, sadəcə, vətəndaşa iş təmini deyil, həm də həmin ərazinin, bölgənin iqtisadi

baxımdan daha da inkişaf etdirilməsi deməkdir. Bölgələrdə işsizliyin aradan qaldırılmasının daha effektli və mümkün olan yolu isə kənd təsərrüfatını inkişaf etdirmək və kəndlini bu sahəyə təşviq etməkdir.

Kəndli tarix boyu ruzisini, dolanışığını əkin-biçin və heyvandarlıqdan, təsərrüfatdan çıxarıb. Azgəlirli, maddi sıxıntılı ailələr, təəssüflər olsun ki, onlara ayrılan pay torpağından səmərəli istifadə edə bilmirlər. Məhsuldarlıq əldə etmək üçün vacib olan suvarma, texnika, yanacaq, xammal və sair bu kimi vasitələr və avadanlıqlar hər kəsə əlçatan olmadığından, vətəndaş çox vaxt təsərrüfatla məşğul ola bilmir. İşləmək üçün rayonda çox məhdud sayda olan dövlət idarə və müəssisələrinə, nəhayət, bizə üz tutur. Bu məqamda isə bir az əvvəl qeyd etdiyimiz səbəblərlə hər kəsi işlə təmin etmək, təəssüf ki, mümkün olmur.

Mövcud reallıq kəndlərin demoqrafik balansına da mənfi təsir edir. Xüsusi ilə gənclər, böyüməkdə olan nəsil kənddə qalmaq istəmir, hər vəchlə şəhərə can atırlar. Buna görə də bölgələrdə işsizliyin aradan qaldırılması üçün kompleks yanaşmaya və hər bir region üçün ayrı-ayrılıqda layihələrin hazırlanmasına ehtiyac var.

Toxunacağım ikinci problemli sahə əlilliyin təyini ilə bağlıdır. Əlilliyin təyin edilməsi üçün müraciət edən şəxs TƏBİB-lə sosial müdafiə qurumları arasında, belə deyək ki, yol ölçür. Bir neçə mərhələdən ibarət olan tramplinləri aşdıqdan sonra, nəhayət, vətəndaşa əlilliyin təyini üçün verilən arayışa rədd cavabı gəlir. Bir qayda olaraq, rədd səbəbi kimi bu cümlə qeyd edilir: "natamam doldurulmuşdur". Bu "natamam doldurulmuşdur" söz birləşməsi artıq əlilliyin təyin edilməsində başabəla bir kriteriyaya çevrilib. Əgər natamam doldurulubsa, bunun günahı və-

təndaşda deyil. Arayışı yanlış yazan qurum cavabdehlik daşımalıdır. Təsəvvür edin, xəstə, halsız, bəzən zorla yeriyən bir adam aylarla qapılar döyür, xəstəxanada yatır, müayinə olunur, şəhərə hər gedib-gələndə yol, yemək, gecələmək xərclərini çəkir və sonda da işini sona qədər yerinə yetirməyən bir əməkdaşın yazdığı yarımçıq arayışa görə rədd cavabı alır. Belə nümunələr, təəssüf ki, var. Düşünürük ki, əlilliyin təyinində vətəndaşın daha əlçatan üsullardan yararlanması üçün tədbirlər görülməsi vacibdir.

Sonda bir daha hər iki layihəni təqdir etdiyimi və hər iki layihəyə səs verəcəyimi bildirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Jalə xanım, Sizə qulaq asdıqca adamı dəhşət bürüyür. Elə bil, bütün ölkə uçuruma gedir. Keçən dəfə, indi də Siz çıxışınızda... Bu qədər işlər görülür, nəyə görə heç biriniz bu haqda danışmırsınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Heç biriniz danışmırsınız. Sosial sahə ilə bağlı bu qədər işlər görülür. Mən elə bundan qabaq çıxış edənlərə də demək istəyirəm. Yadınıza salın bütün işləri. Nəyə görə bu haqda danışmırsınız?

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, millət vəkilləri və media nümayəndələri. Dəfələrlə bu fikir parlamentdə də səslənib ki, bir həqiqət və reallıq var: Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasında Azərbaycan vətəndaşı dayanıb. Biz dövlət başçısının bütün iqtisadi siyasətinin, ordu quruculuğu siyasətinin, ən nəhayət, bütövlükdə, siyasətinin mahiyyətinə varanda görürük, məntiq ona söykənir ki, suveren Azərbaycan Respublikasının vətəndaşları azad, ra-

hat, firavan yaşamalıdırlar. Bütün istiqamət buna yönəlib və hər il də bu nəticələr göz önündədir.

Xüsusi ilə sosial təbəqəyə, müharibə iştirakçılarına, şəhid ailələrinə olan qayğı, diqqət, mən hesab edirəm ki, ən yüksək səviyyədədir. Dövlətin bütün potensialı çərçivəsində bu istiqamətdə görülən işlər, müharibə iştirakçılarına, şəhid ailələrinə dövlət səviyyəsindəki qayğı, onların mənzillə, avtomobillə təmin olunmaları, verilən müavinətlərin getdikcə artırılması onu göstərir ki, bu proses həm dövlətin, həm də cəmiyyətin ürəyincədir.

Əlbəttə, həmin kateqoriyadan olan insanlara qayğı təkcə dövlətin qayğısı deyil, həm də cəmiyyətin qayğısıdır. Həssas təbəqəyə, müharibə veteranlarına, şəhid ailələrinə qayğı, bir daha qeyd edirəm ki, cəmiyyətin hər bir üzvü üçün ümdə məsələlərdən biridir.

Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid və qazi ailələrinə, ümumiyyətlə, cəmiyyətin bütün həssas təbəqələrinə olan qayğısı, eyni zamanda, Heydər Əliyev Fondu vasitəsi ilə bu sahədəki fəaliyyəti, hesab edirəm ki, hər kəs üçün bir nümunədir. Eyni zamanda, Arzu xanım Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın fəaliyyəti, uşaq bağçalarında olması, talassemiya xəstələri ilə görüşməsi və bu kateqoriyadan olan çoxsaylı tədbirlər, bir daha qeyd edirəm ki, cəmiyyət üçün bir nümunədir. Mən hesab edirəm ki, bu, digər qurumlar üçün də nümunə olmalıdır. Yəni müəyyən iş adamları, özəl sektor, dövlət sektoru da bu addımları atmalıdır.

Biz bilirik və dəyərləndiririk ki, bu addımlar atılır, yəni həm özəl sektor, həm də ayrı-ayrı iş adamları tərəfindən bu işlər həyata keçirilir. Mən belə düşünürəm ki, bu işlər

sistemli şəkildə həyata keçirilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ya tutaq ki, Qızıl Aypara Cəmiyyəti xətti ilə, – yerlərdə strukturları var, uzun müddətdir çox peşəkarcasına fəaliyyət göstərirlər, ərazidəki insanların fəaliyyətini bilirlər, həssas sosial təbəqənin ünvanlarına qədər bələddirlər, – həyata keçirilməlidir. Düşünürəm ki, hər hansı özəl sektor, hər hansı iş adamı və ya hər hansı bir fiziki şəxs həssas kateqoriyaya aid olan insanlara kömək etmək istəyirsə, həmin qurum vasitəsi ilə bunu çox yüksək şəkildə həyata keçirə bilər.

Mənim 2 təklifim var, istəyirəm, onları səsləndirəm. Birincisi ixtisarla bağlıdır. Məlumdur ki, bu və ya digər səbəbdən iri müəssisələrdə ixtisarlar gedir. Bu ixtisarlar əvvəlcədən, – orada nadir peşə sahibləridir, qaynaqçılardır və digərləridir, – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq qurumu ilə, yəni Dövlət Məşğulluq Agentliyi ilə sıx əlaqədə aparılmalıdır. O ixtisara gedəcək işçilər bəzən yüksək peşə sahibi olurlar və digər yerlərə axın gedir. Yəni  bu da məlumdur ki, qaynaqçı və digər belə yüksək kateqoriyalı peşə sahiblərinə ölkədən kənarda böyük tələbat olduğu üçün onlar gedirlər. Ona görə düşünürəm ki, əvvəlcədən, bax, bu cür tədbirlər həyata keçirilməlidir.

İkinci təklifim kran maşinistlərinin güzəştli pensiyaya çıxmasının təmin olunmasıdır. Mən bütövlükdə qanun layihəsini dəstəkləyirəm, ona səs verirəm və düşünürəm ki...

**Sədrlik edən.** Sağ olun. Rövşən Muradov. Buyurun.

**Rövşən Muradov.** Hörmətli sədr, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, media nümayəndələri, xanımlar və cənablar. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi zərfinə daxil olan Dövlət Sosial Müdafiə

Fondunun və İşsizlikdən sığorta fondunun 2025-ci il büdcələri haqqında Azərbaycan Respublikası qanunlarının layihələri "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun və "Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamının və digər qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla hazırlanmışdır. Hər iki fondun 2025-ci il üçün büdcə layihələri növbəti ildə ölkənin iqtisadi, sosial inkişafı, demoqrafik vəziyyəti və əmək ehtiyatları üzrə proqnozlarına əsaslanır.

Müzakirəyə çıxarılan hər iki qanun layihəsini dəstəkləyirəm və onlara səs verəcəyəm.

Bildiyiniz kimi, 2025-ci il və ortamüddətli dövr üçün büdcə siyasəti bir neçə əsas çağırışlar nəzərə alınmaqla müəyyən edilmişdir. Onlardan biri də Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Ona görə də icazənizlə, işğaldan azad olunmuş Laçın rayonunu təmsil etdiyim üçün bu rayonun məşğulluq problemləri ilə əlaqədar apardığım elmi tədqiqat işləri ilə bağlı bəzi təklif və tövsiyələrimi sizin nəzərinizə çatdırım.

Dövlət Statistika Komitəsinin 2024-cü ilin əvvəlinə olan məlumatlarına əsasən, Laçın rayonunun əhalisinin sayı 75,7 min nəfər təşkil edir ki, onların da 52,1 min nəfərini və ya 68,8 faizini 15–64 yaşda, yəni əmək qabiliyyətli yaşda olanlar, ümumi əhalinin 17,6 min nəfərini və ya 23,3 faizini isə 15–29 yaşda olan gənclər

təşkil edir. Laçın rayonunda demoqrafik vəziyyət hələlik müsbətdir və gələcəkdə əhalinin sayının daha da artacağı gözlənilir. Belə ki, əgər hazırda respublikamızda əhalinin hər min nəfərinə düşən doğulanların sayı 11,1 nəfər, ölənlərin sayı 5,9 nəfər, təbii artım 5,2 nəfərdirsə, Laçın rayonunda bu göstəricilərin səviyyəsi xeyli yüksək, yəni müvafiq surətdə 14,8, 5,9 və 8,9 nəfər təşkil edir.

Eyni zamanda, nəzərə alınmalıdır ki, hər hansı bir ölkədə və ya ərazidə əhalinin sayı, o cümlədən gənclərin sayı çoxdursa, bu o deməkdir, bir çox başqa sosial-iqtisadi problemlərlə yanaşı, həm də əhalinin işlə təmin edilməsi kimi çox çətin və mürəkkəb problemin mövcudluğu da istisna edilmir.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində Laçın rayonundan məcburi köçkün düşmüş vətəndaşlarımızın öz ata-baba torpaqlarına qayıda bilmələrinin əsas yolu həmin ərazilərin bərpa edilməsi və orada məhsuldar qüvvələrin inkişaf etdirilib düzgün yerləşdirilməsindən ibarətdir. Bu məqsədlə Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən, mənim də yaxından iştirak etdiyim Postkonflikt Ərazilərin Bərpası Elmi Mərkəzində tədqiqatçı alimlər Laçın rayonunda yaxın iki il ərzində 5100 nəfərlik yeni iş yerləri yaradılması üzrə tədbirlər planı işləyib hazırlamış və onun sxemini müvafiq dövlət və hökumət orqanlarına, habelə iş adamlarına təqdim etmişlər. Bu sxemdə rayon ərazisində infrastruktur sahələri üzrə – şəhər logistika mərkəzləri, yükdaşıma şirkətləri, ənənəvi istehsal sahələri üzrə – dağmədən sənayesi və aqrar sənaye kompleksi, yeni sahələr üzrə – turizm və əczaçılıq və sairin inkişafı nəzərdə tutul-

muşdur.

Əlbəttə, adıçəkilən tədbirlərin həyata keçirilməsi müəyyən maliyyə vəsaiti ilə yanaşı, həm də xüsusi ixtisas və peşə təhsili, orta və ali təhsilli kadrların olmasını tələb edir. Ona görə də həmin sahələri ixtisaslı və yüksək təhsilli mütəxəssislərlə təmin etmək üçün Laçın şəhərində ilk növbədə, təklif edərdim ki, Azərbaycan Texniki Universitetinin filialının, geniş profilli peşə-texniki məktəbinin və tibb texnikumunun yaradılmasına böyük zərurət olduğu nəzərə alınsın.

Laçın rayonu ərazisində məhsuldar qüvvələrin inkişaf etdirilib düzgün yerləşdirilməsi zamanı o da nəzərə alınmalıdır ki, Laçın Azərbaycanın səngər qalası və mənfur qonşu ölkənin Qarabağa açılan qapısıdır. Ona görə də ölkəmizin bir çox digər bölgələrindən fərqli olaraq elə təsərrüfat sahələri və infrastruktur yaradılmalıdır ki, gələcəkdə Azərbaycanın digər ərazilərindən də gəlib burada məskunlaşmağa, işləməyə, ailə qurub yaşamağa maraq artsın, burada əhalinin sayının daha da artıb çoxalmasına imkan yaransın, əhalinin tərkibində gənclərin xüsusi çəkisinin artmasına və onların bu ərazilərdə qalıb daimi yaşamalarına təminat olsun. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli hökumət və Məclis üzvləri. Dünən həmkarlarımız çıxış edərkən ilk “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hökumət sistemində əhalinin daha çox müraciət etdiyi bir strukturdur” cümləsi və “ən ağır tələblərin, müraciətlərin olunduğu bir qurumdur” ifadəsi ilə başlayırdılar. Bu, həqiqətdir və bunu müstəqillikdə keçdiyimiz dövr də sübut edir. Mən hamısının adını sadalamasam da, rəhmətlik

Lidiya xanım Rəsulova, hakim partiyanın rəhbər şəxslərindən biri də daxil olmaqla məlum insanlar olub.

Biz bilirik ki, hörmətli Sahil müəllimin rəhbərliyi ilə bu qurumda aparılan islahatların özü də kifayət qədər ağrılı olub, asan başa gəlməyib. Əgər bəyan ediriksə ki, 200 min insanın əlilliyi ləğv olunub, o, qanunsuz təyin olunub, bu o deməkdir, həm də əvvəlki dövrə qiymət vermiş oluruq, sanki o yanlışları tanıyırıq. Ona görə də bu məsələdə dərinə getmədən birinci prinsipial mövqeyimiz ondan ibarətdir ki, dövlətin bu sahəyə ayırdığı böyük vəsaitlər vətəndaşa çatsın, sosial siyasət sabit olsun, yəni nazirlərdən asılı olaraq tez-tez dəyişməsin.

İndi Sahil müəllim bütün bu ağrılara qatlaşaraq, nəhayət, bəlli bir sistemi formalaşdırıb. Xüsusi ilə də bütün sistem gerçəkdən elektronlaşıb. Biz ayrı-ayrı nazirliklərdən, – mənim təmsil etdiyim mərkəzin üzərindən deyirəm, – müxtəlif məlumat bazalarını istəyəndə gördük, ən çox hazırlıqlı qurum məhz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. Bəlkə də ölkənin 50–100 ilinin bütün məlumat kütləsi orada toplanıb və beynəlxalq məkanda bu, çox önəmli sayılır.

**Sədrlik edən.** Zahid müəllim, bircə dəqiqə, üzr istəyirəm, sözünüzü kəsmək məcburiyyətindəyəm. Mən hamıya xatırladıram, fevral ayında həmin o nazirlik bizə hesabat göndərib. Hörmətli deputatlar, o hesabata baxmısınızmı? İndi burada çıxışlar edirsiniz. Bax, indi Zahid müəllim həmin o materiallardan danışır. Buyurun, üzr istəyirəm.

**Zahid Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Həqiqətən də, qeyd etdiyimiz insanlardan, cəmiyyətdən gələn bu müraciətlərin başqa bir indikatoru Sizin dediyinizdir. Parlamentdən millət vəkillərinin nazirliklərə, hökumət

strukturlarına etdiyi müraciətlər sırasında da məhz elə həmin nazirlik birinci yerdə dayanır və ən çox cavab aldığımız da onlardır. Yalnız məktublar vasitəsi ilə deyil, indi “WhatsApp” şəbəkəsi və digər sistemlər üzərindən də işləyirik.

Ancaq mən burada bir neçə vacib məsələni qaldırmaq istəyirdim. Biz əhalinin gəlirlərindən, orta aylıq əməkhaqqından danışırıq. Ancaq bunun da bəlli bir beynəlxalq modeli var. Yəni bir adamın min manatı var, ikincinin bir manatı. Min biri iki nəfərə bölmürük. Ümumi daxili məhsulun adambaşına nisbəti bir indikatordur, amma tam keçərli deyil. Ona görə 20 faiz və ya 10 faiz, istəklə ölçülür. Məsələn, Gürcüstan gəlirləri 25 min dollardan yuxarı olan muzdlu işçilərin də sayını verir, 340 mindən artıq olan 450–900 dollar hissədə olan əhali kütləsini də verir. Biz yoxsul təbəqənin göstəricilərini bəyan edirik, amma həm də bayaq bəyan olunan varlı kəsimi, orta təbəqəni göstərmək üçün gəlirlərin paylanmasını tam dərc etmək də yerinə düşər.

İkinci. Müavinətlərin artırılması ilə bağlı mövqeləri bəyan etməkdən qabaq biz, birinci, iqtisadi dəyəri yaratmaq prosesinə töhfə verməliyik. Bizim hamımız ən adi məişət qayğıları ilə yaşayanda peşəkar televizor ustası, digər məişət avadanlığı ustalarını axtarırıq. Bundan başqa da yüzlərcə sahə var.

Hörmətli Sahil müəllim çıxışlarının birində də özü bəyan edib. Dövlət Məşğulluq Agentliyinin rəsmi məlumatı yayılıbdır. Qarabağa qayıdacaq 130 min insanın 73 faizi ixtisassızdır.

Bizim peşə məktəblərimiz, doğrudan da, bunları qarşılamağı bacarmalıdır ki, nə qədər çox insanları o sahələrə

yönəldə bilsək... Bir yandan da neft hasilatının səbəbləri üzərində dayanmaq istəmirəm, bir qədər başqa subyektiv səbəblərim də var, amma hasilatın azaldığını bəyan ediriksə, gəliri yaradacaq vətəndaşlar harada yaradacaq? Vaxtı ilə Qarabağda 400 min iş yeri var idi. Biz hədəf olaraq arzulayırıq və Ali Baş Komandanın da strateji hədəfi budur, 1 milyona yaxın insan, yalnız Qarabağ camaatı, o azad torpaqların camaatı deyil, daha çox insanlar, – necə ki, başqa yerlərdə də belədir, daxili miqrasiyadır, – milyona yaxın insanımız getsin, orada 400 minə yaxın iş yeri yaradılsın, Bakıda, paytaxtda da bu gərginlik ortadan qalxsın və sair.

Veteran pulu ilə bağlı. Mən bilmirəm, zamanıma nə qədər qalıb. Bircə bu məsələni də qaldırmaq istəyirəm, bir də subay şəhidlərimizlə əlaqədar.

Artıq bəllidir, rəqəmin 200 min olduğu söylənilir. Hamı da deyir ki, bu 80 manat kommunal tarifləri ödəmək üçün verilir. Tutaq, biz onu 160 manat etdik, hətta 320 manat oldu. Məncə, köklü şeylər dəyişməyəcək. Biz o mövqeni seçməliyik ki, veteranlar bəlkə özünüməşğulluq prosesinə cəlb olunsunlar, o da şəffaf, açıq olsun. Bu adam 5 min, 7 min manat vəsait aldı, hansısa bir məişət avadanlığı, hansısa bir heyvan alır və sair. O, yəni işsiz adam kimi əmək bazarından çıxdı, dövlət ona nə isə vəsaitlər...

**Sədrlik edən.** Fikrinizi bitirin.

**Zahid Oruc.** Yəni biz 3 il sonra, 5 il sonra tətbiq edə bilək ki, o, həqiqətən də, əmək bazarında məşğul insandır. Bu halda bir qisim adam bəlkə də aylıq 80 manat almaq sistemindən çıxacaq, normal əmək prosesinə qoşulmuş olacaq və yalnız bu halda biz müavinət siyasətindən imtina etmiş olacağıq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mahir Süleymanlı. Buyurun.

**Mahir Süleymanlı.** Çox hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar və media nümayəndələri. Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində ölkəmizdə mənzil və fərdi evlə təmin olunan şəhid ailələri və müharibə əlillərinin sayı ildən-ilə əhəmiyyətli dərəcədə artır.

Şəhid ailəsi üzvlərinə edilən güzəşt və imtiyazları, dövlət başçısının tapşırıqları əsasında şəhid ailəsi üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketini xüsusi qeyd etmək lazımdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən uğurla reallaşdırılan həmin sosial dəstək paketi çərçivəsində şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Bununla yanaşı, şəhid ailələri, müharibə əlilləri və qazilərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib və onlara 6 min 326 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib.

Habelə, bu kateqoriyadan olan 24 min şəxsin məşğulluğu təmin edilib və 12 min şəxs isə özünüməşğulluq proqramına cəlb olunub ki, bu da dövlətimizin şəhid ailələrinə və müharibə əlillərinə göstərdiyi diqqət və qayğının yüksək göstəricisidir.

Cənab Prezidentimiz İlham Əliyevin gərgin əməyi, uzaqgörən daxili, xarici siyasəti nəticəsində bu gün Azərbaycan bütün sahələrdə inkişaf edən qüdrətli bir dövlətə çevrilib. Cənab Prezidentimizin tapşırığı, hörmətli Birinci vitse-prezidentimizin təşəbbüsü ilə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində respubli-

kamızın bütün bölgələrində geniş abadlıq-quruculuq işləri aparılır. Həmçinin onu da qeyd etmək istərdim ki, Heydər Əliyev Fondu tərəfindən qazilərimizə, şəhid ailələrinə çox böyük diqqət və qayğı göstərilir.

Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri. Həmçinin bunu da qeyd etmək istərdim ki, hörmətli xanım sədr Sahibə xanım Qafarovanın əmri ilə 2 qazimiz və 1 şəhid anası Milli Məclis Aparatında işlə təmin olunub. Bunlar cənab Prezidentimizin, Birinci vitse-prezidentimizin, hökumətimizin və Milli Məclis rəhbərliyinin şəhid ailəsi və qazilərə olan dəstəyinin göstəricisidir.

Hörmətli xanım sədr, icazə versəydiniz, deputatı olduğum Şabran rayonu ilə bağlı bir neçə məsələni də qeyd etmək istərdim. Şabran rayonunda keçirdiyim vətəndaş qəbulu zamanı seçicilərim məndən bir neçə məsələ ilə bağlı fikirlərini hökumətin diqqətinə çatdırmağımı xahiş etmişlər.

Şabran rayonunda Xəlfələr, Düz Bilici, Zağlı, Çinarlar, Çayqaraqaşlı və Hacıqaraqaşlı kəndlərinin qazlaşdırılması məsələsini, qəzalı vəziyyətdə olan Şabran şəhər Samir Zülfüqarov adına 3 nömrəli, Ağbaş kənd və Rəhimli kənd tam orta məktəblərinin təmirə ehtiyacı olduğunu bildirmiş və Əmirxanlı, Çölquşçu, Qorğan, Çayqaraqaşlı, Hacıqaraqaşlı kəndlərinin su təminatı, habelə Çuxurzəmi və Mumlu kəndlərinin yol məsələlərini qeyd etmişlər.

Çox hörmətli xanım sədr, mən hökumət üzvlərindən 2025-ci il dövlət büdcəsində yuxarıda qeyd etdiyim məsələlərin həlli üçün maliyyə vəsaiti ayrılmasını xahiş edirəm. Bütün hökumət üzvlərinə təşəkkürümü bildirir və fəaliyyətlərində uğurlar arzulayıram. Hörmətli xanım sədr, diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mahir müəllim, bizdə 4 qazi işləyir. 2 deyil, 4 qazi. Üçü ali təhsilli, biri isə orta təhsilli. Bir nəfər də şəhid anası.

Arzuxan Əli-zadə. Buyurun, Arzuxan müəllim.

**Arzuxan Əli-zadə.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri və hörmətli media mənsubları. Mən dünən, əslində, pensiya təminatına aid bəzi məsələlərlə bağlı mövqeyimi bildirdim. Bu gün əlavə olaraq 1-2 məsələ ilə bağlı fikirlərimi çatdırmaq istəyirəm.

İlk növbədə onu deyim ki, 2025-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərində 2023-cü illə müqayisədə 12,4 faiz, 2024-cü illə müqayisədə isə 9,6 faiz artım nəzərdə tutulub. Biz nəzərə alsaq, 30 ilə yaxın işğal faktoru ilə üz-üzə qalmışıq, 1 milyon qaçqın, köçkünümüz olub və bu gün işğaldan azad olunmuş əraziləri bərpa edirik, Böyük Qayıdışa hazırlaşırıq, eyni zamanda, dünən də qeyd etdim, Ermənistan sürətlə silahlandırılır, müasir silahlar göndərilir və biz, təbii ki, müdafiə xərclərimizi artırmağa məcburuq. Bütün bu deyilənlərin fonunda sosial müdafiə, pensiya və müavinətlərin artırılması, təbii ki, müsbət tendensiya kimi qəbul edilməlidir. Amma eyni zamanda, biz onu da nəzərə almalıyıq ki, əhalinin müəyyən bir həssas təbəqəsi var və o həssas təbəqənin də problemlərinin həlli istiqamətində addımlar atılmalıdır.

Təbii ki, artımlar yaxşıdır, daha çox artım olmasını istərdik. Amma onu da nəzərə almaq lazımdır ki, Azərbaycan, bütövlükdə, sadaladığım problemləri öz gücünə yerinə yetiribdir. Biz elə də uzunmüddətli müstəqillik yolu keçməmişik. Cəmi 32 ildir dövlətimiz müstəqillik əldə edibdir və 32 illik müstəqillik dövrünü yaşayan, bütöv-

lükdə, problemləri öz gücünə həll edən dövlət üçün, təbii ki, bu cür ayırmalar da müəyyən çətinliklər yaradır. Amma bir daha deyirəm, müəyyən həssas kateqoriyalar var ki, onların da problemlərinin həlli istiqamətində fəaliyyətimizi bir qədər artırmağa ehtiyac yaranır.

Mən dünən müəllim və həkimlərlə bağlı fikrimi bildirdim. Yenə növbəti bir fikrimi bildirmək istəyirəm. Məlumdur ki, bundan əvvəlki dönəmlərlə müqayisədə indi məvaciblər artıbdır. Təbii ki, həm müəllimlər, həm də həkimlər əvvəlki illərə nisbətən kifayət qədər böyük məvaciblər alırlar. Amma zamanında az məvacib alaraq təqaüdə çıxan bizim müəllim və həkimlərimiz var ki, indiki dönəmlə müqayisədə onların pensiyaları kifayət qədər aşağıdır. Hesab edirəm ki, indeksasiya prosesində onların təqaüdlərinin müəyyən qədər artırılması daha məqsədəuyğun olardı. Çünki həyatının əhəmiyyətli hissəsini, bir çox hallarda 40-45 ilini insanımızın maarifləndirilməsinə, eyni zamanda, sağlamlığının keşiyində dayanmasına həsr etmiş bu insanlar hazırda çox az təqaüd alırlar və istərdim ki, bu məsələyə həssas yanaşaq.

Eyni zamanda, həmkarlarım qeyd etdilər, mən bizim veteranlarımızla bağlı məsələyə bir daha qayıtmaq istəyirəm. Təbii ki, hörmətli Zahid müəllimin təklifi olduqca təqdirəlayiqdir. Əgər biz bunu edə, onları məşğulluğa cəlb edə biləcəyiksə, bu, çox yaxşı olar. Amma reallıqda məsələ belədir ki, 2019-cu ildən etibarən veteranlara 80 manat müavinət ödənilir və üstündən 5 il keçib. Biz artıq qalib xalqıq, Birinci və İkinci Qarabağ savaşında iştirak etmiş veteranlarımızın hər biri qəhrəmandırlar. Nəzərə almaq lazımdır ki, onlara verilən 80 manat 5 il əvvəlki 80 manatla eyni deyil. Hətta 2006-cı ildə həmin veteranlara

55 manat verilirdi ki, o zaman bu, təxminən 70 dollar edirdi və 70 dollar da bugünkü ekvivalentdə 120 manatdır. Ona görə bunu da nəzərə almaq lazımdır. Həssas təbəqə olan veteranlarımızla bağlı, mən hesab edirəm ki, artımlara gedilməsi məqsədəuyğun olardı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Səyyad Salahlı. Buyurun.

**Səyyad Salahlı.** Təşəkkür edirəm, xanım spiker. Hörmətli Sahibə xanım, misilsiz şəkildə inkişafımız hamımızın gözü qabağındadır. Hərdən televiziyada Bakının üstdən dronla panoramını verirlər, adam heyran qalır ki, bu bizim şəhərdir, yoxsa Amerikadır. Biz bu inkişafın içində olduğumuza görə bizə adi gəlir. Düşünürük ki, belə də olmalıdır. Bizim burada söylədiklərimiz isə düşmən gözü çıxaran bəzi xırda-para nöqsanları gün işığına çıxarmaqdır ki, əlaqədar nazirliklər, təşkilatlar bunları görüb bu məsələdə bir az da aktiv fəaliyyət göstərsinlər, səhvlərimiz az olsun. Allah qoysa, mən bizə ayırdığınız yarımsaatlıq vaxtda bunun səbəbini ətraflı şəkildə izah etməyə çalışacağam və faktlarla göstərəcəyəm. Amma indi həmin o bəzi xırda-para məsələləri əlaqədar nazirliklərin diqqətinə çatdırıram ki, olmasın. Özü də bu məsələləri onlar həll edə bilərlər.

Bu xırda-para məsələlərdən biri budur ki, – İmişlidən söhbət gedir, – 1 nömrəli şəhər orta məktəbində bu gün 1390 nəfər şagird təhsil alır, məktəbin cəmi 28 otağı, amma 56 sinfi var. Yeni bir korpus tikilməlidir. Burada o qədər sıxlıq var ki, məktəb 6 gün dalbadal ikinövbəli təhsil üsulu ilə işləyir. Bunu çoxdan bilirlər. Amma təəssüf ki, əməl etmirlər. Məktəbin akt zalı ideoloji tədbirlərin məkanıdır. Bu, mütləq asudə olmalıdır ki, orada respublikanın rayonlarından gələn alimlər, şairlər, görkəmli insanlar,

yazıçılar şagirdlərlə görüş keçirsinlər və bu uşaqlar da kimə oxşamaq lazım olduğunu görsünlər, anlasınlar. İdeoloji baxımdan çox vacib məqamdır. Məktəbin akt zalı sınıq, nə bilim, yaman günə qalmış partalarla, stollarla, stullarla doludur. Bunları ora komplekt şəkildə göndərib o akt zalını işlək hala gətirmək olmazmı?

Yaxud, 7 kilometrlikdən, Məhəmmədli kəndindən Göbəktala və Rəsullu kəndlərinə şagirdlər gəlir. Bu şagirdlər qışda asfalt yolla gəlirlər. Maşınların təkərinin altından çıxan şeylər sıçrayıb üst-başlarını bulayır. Yayda da o istinin şiddəti ilə. Bu Məhəmmədlidə bir modul tipli məktəb tikmək olmazmı? Axı, bu problem bununla da həll olunur. Burada hər zaman qorxulu bir hadisə baş verə bilər. Bunu deyirəm və bunu bir nöqsan kimi, tənqid kimi söyləmirəm, sadəcə, yada salıram. Əlbəttə, nazirlik elə bütün kəndlərə lupa qoyub baxmayacaq ki, harada məktəb var, harada 7 kilometr yol gedirlər və sair.

1 nömrəli məktəbdən xeyli ballar toplayıb respublikanın ali məktəbinə daxil olan uşaqlar var. O məktəbdə təhsil çox yüksək səviyyədədir. Amma nə bir fənn gecəsi keçirilir, nə bir görüş, nə də başqa bir şey olur. Dəhliz də həddindən artıq, – mən bələdəm deyə deyirəm, – sıxdır, yerimək mümkün olmur. Bunu xatırladıram.

Sonra, 15 il olar, yeni binada uşaq mərkəzi kitabxanası tikilib. Amma bunun istilik sistemi yoxdur, elektrik xətləri bərbad vəziyyətdədir, binanın dam örtüyünün dəyişdirilməsinə ehtiyac var, eləcə də qapı və pəncərələrin istismar müddəti bitmişdir. Mədəni-maarif müəssisəsində sanitar qovşağı yoxdur. Ağla sığmır. Binada əsaslı təmir işlərinin aparılmasına ehtiyac var. 35 ildir ki, təmir yoxdur. Bunu xatırladıram ki, eşitsinlər və bu barədə müəyyən bir iş

görsünlər.

Hələ özümün bundan əvvəlki iş yerimdə olan bir faktı da demək istəyirəm. Müəyyən təşkilatlarda ezamiyyələr verirlər. Çox bərbad bir vəziyyətdədir, sovet sistemindən qalan yanaşma tərzidir. 50 manata otel yoxdur. Bunlar 50 manat hesablayırlar ki, get, elə bir otel tap. Respublikanın rayonlarında belə otel yoxdur. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Səyyad müəllim, əgər fikriniz varsa, buyurun, deyə bilərsiniz. Mən vaxt verərəm. Cəmi 1 adamımız qalıb. Narahat olmayın, buyurun, Siz deyin.

**Səyyad Salahlı.** Minnətdaram. İcra nümayəndəlikləri deyilən bir idarə var, keçmiş kənd sovetləri. Bunların əksəriyyətinin binası yoxdur. Oruclu kəndində tragikomik bir vəziyyət var. İcra nümayəndəsi sənədləri maşınında gəzdirir, kənddə dairə vurur ki, ay camaat, mən buradayam, gəlin, kimin nə kağız-kuğuza ehtiyacı varsa, versin. Axı, belə olmaz. Buna bir tikili vermək olmaz?

Uşaq bağçaları baxımından da vəziyyət yaxşı deyil. Təhsilin, elmin və bir vətəndaş, şöhrətli, qalib Azərbaycan vətəndaşı kimi formalaşmağın ilkin anı uşaq bağçalarıdır. Çox təəssüf ki, bunlar bərbad vəziyyətdədir, çoxu təmirsizdir. Bir çoxu, ümumiyyətlə, yoxdur. Məsələn, Bəhrəmtəpə kimi bir qəsəbədə uşaq müəssisəsi yoxdur.

Allaha şükür, camaatın vəziyyəti çox yaxşıdır. Hamıya da izah edirik ki, ay kişi, bazar iqtisadiyyatı dövrüdür, bu sözün mənasını başa düşürsən? Get, özünə iş tap, gün ağla. Sən gözləyirsən ki, dövlət mənə pul versin. Nə bilim, dövlət bir traktor versin, kombayn versin. 10 nəfər yığışın, gedib bir traktor alın, heç kimə də minnət etməyin. Ən əsas məsələ yeri qazmaqdır. Sonra toxum da, subsidiya da verirlər sənə. Sən tənbəlsən, şah tənbəli. İndi biz sənin

üçün nə edək? İzah edirik və başa düşürlər, dərk edirlər.

Çoxlu inkişaf etmiş fermerlər var, insanlar da onlara baxır, bəzən gedib yanlarında da işləyirlər. Onlar da anlamaq istəyirlər ki, bu işin səmərəsi nədir. Əgər kim desə ki, camaatın işləməyə, qazanmağa pulu yoxdur, yalandır. Qazanmaq insanın özündən asılıdır. Sən qazanmaq istəmirsən, "Allahdan buyruq, ağzıma quyruq" deyib düşünürsən. Bu düşüncənin, zehniyyətin yiyəsi, əlbəttə, durub ona-buna baxacaq və işləyə, pul qazana bilməyəcək. Amma onun öz kəndçisi elə mahir bir fəaliyyət sahəsi qurub ki, 40 dənə inəyi və camışı var. Onlara görüşlərdə misal çəkirəm, bütün kənd gəlir, deyirəm, bəs sən nə edirsən, nə fikirləşirsən? Deyir, hə, mən nə isə bacara bilmirəm. Deyirəm, bacar da. Dövlətə əl açıb demə ki, mənə pul ver. O getdi. Bu, bazar iqtisadiyyatıdır, özünə gün ağla. Çox təşəkkür edirəm, xanım spiker.

**Sədrlik edən.** Çox sağ olun. Biz Sizə çox diqqətlə qulaq asdıq. İndi mən də Sizə bir neçə fikrimi bildirim. Siz deyirsiniz ki, hamısı xırda-para məsələlərdir. Xırda-para məsələlər haqqında xırda-para kimi danışmaq lazımdır. Onu böyük, qlobal bir problemə çevirmək lazım deyil. Bu, bir.

İkincisi, çox hörmətli Səyyad müəllim, Sizin sözünüzdən mən elə başa düşdüm ki, Siz elə bilirsiniz, mən burada heç kimi danışmağa qoymuram. Xeyr. Burada oturan mənim çox hörmətli həmkarlarım var. Ən azı keçən 5 ildə çox yaxşı bilirlər ki, mən heç kimin sözünü heç vaxt kəsmirəm. Əgər kəsirəmsə, mən üzr istəyirəm, tərbiyəm belədir.

Üçüncüsü, burada Siz elə çıxışınızın sonuncu hissəsində öz suallarınıza cavablarınızı verdiniz. Çünki çox zaman insanların özləri də çox fəal olmalıdırlar. Biz bunu burada müzakirə edəndə, əslində, dövlətin, hökumətin

gördüyü işlər haqqında geniş danışmaq lazımdır. Çünki bizə hamı qulaq asır. Biz xalqı təmsil edirik. Burada isə bəziləri elə çıxış edirlər ki, guya onların seçiciləri bu dəqiqə bu ölkəyə qarşıdırlar. Görülən işlər haqqında danışılmır. Bu qədər işlər görülür. Bəli, əlbəttə ki, çatışmazlıqlar var. İş olan yerdə problem də olacaq. Amma bunların hamısını çox düzgün olaraq çatdırmaq lazımdır. Alternativ nə isə təklif etməyi lazım bilirsə, həmin deputat, heç olmasa, ya bunun yolunu göstərsin, ya da bunu elə formada çatdırsın ki, camaata da, – mən bunu həmişə demişəm, – necə deyərlər, çaxnaşma salmasın.

Siz dünən deyirsiniz, deyəsən, bəzi hökumət üzvləri bəzi şeyləri elə edirlər ki, elə bil, qəsdən edirlər, düzgün etmirlər. Bu, nə deməkdir? Bu, kimin sözüdür? Kim üçün deyilir? Hansı tərəflərin sözüdür bu? Ona görə də hər bir sözün arxasında ya faktlar, ya da dərin məntiq durmalıdır.

Çox hörmətli Səyyad müəllim, mən Sizə üzümü tutub bunu tək Sizə demirəm. Bu dəqiqə bunu hamıya deyirəm. Hamıya deyirəm bunu. Bu sahədə çox böyük işlər görülüb, mən təkrar edirəm. Hesabatlar var, hesabatlara baxın. Dəfələrlə nazir gəlib burada çıxış edib. Mən bu gün də Sahil müəllimə vaxt verəcəyəm. Sahil müəllim, burada deyilən sözlərə, sualların hamısına cavab verilsin. Təkliflərə də, xahiş edirəm, öz münasibətinizi indi də bildirməsəniz, biz sonra Sizi çağıracağıq, bildirərsiniz.

Burada çox şeylər danışılır. Yenə də heyvanlardan danışdılar. Siz dünən cavab verdiniz. Yenə də deyirlər, guya ki, heyvanlar sağlam verilmir və sair. Bu "heyvanlar" sözü bu gün işlədilməsə də, ancaq bununla bağlı "materiallar verirlər" deyildi.

Kimsə deyir ki, gedib kiminsə soyuducusunu yoxlayır-

lar, qazanını yoxlayırlar. Doğrudanmı, bu, belədir? Xahiş edirəm, danışanda fikir verin.

Səyyad müəllim, mənim Sizə çox böyük hörmətim var, mən burada hamıya danışmağa imkan verirəm. İnsafı varsa, bir adam burada deyə bilməz ki, mən kiməsə danışmağa imkan vermirəm. 30 dəqiqəliyi mən ənənə etmişəm. Bizim hər iclasımız 30 dəqiqəliklə başlayır.

Günay Ağamalı. Buyurun.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, hökumət üzvləri, həmkarlar və media mənsubları. Hörmətli xanım sədr, çıxış üçün şərait yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm.

Cənab Prezident İlham Əliyevin çox böyük peşəkarlıq və zərgər dəqiqliyi ilə həyata keçirdiyi sosial-iqtisadi siyasət və ölkə iqtisadiyyatının dayanıqlı, davamlı inkişafı, büdcənin sosial xarakter daşıması ölkəmizin reallığını özündə ifadə edir. Mövcud risklər fonunda əldə olunan nailiyyətlər dövlət başçısı cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsidir.

Ölkə rəhbərinin ötən illərdə həyata keçirdiyi uğurlu siyasət iqtisadi inkişafın və əhalinin sosial rifahının yüksəlməsini təmin etmişdir. Azərbaycanda davamlı sosial islahatlar aparılmış, sosial müdafiə sistemini gücləndirmək məqsədi ilə müxtəlif proqramlar hazırlanmışdır. Məhz bu səbəbdən hər il pensiyalar, müavinətlər və sosial ödənişlərin artırılması sosial ədalətin təmin edilməsinə zəmin yaratmışdır.

Diqqətinizə çatdırmaq istərdim ki, ölkəmizdə həyata keçirilən sosial layihələr sırasında günərzi qayğı və reabilitasiya mərkəzlərinin qısamüddətli deyil, uzunmüddətliliyi səmərəli nəticələr verə bilər.

Bütün bunlarla yanaşı, millət vəkili seçildiyim Salyan, Biləsuvar, Neftçala rayonlarında vətəndaşlarla keçirdiyim görüşlərdə önə çəkilən əsas məsələlərdən biri uşaq bağçalarının çatışmazlığı və əksəriyyət kəndlərdə tibbi məntəqələrin olmamasıdır.

Salyan rayonunun Ərəbqardaşbəyli kəndində və Biləsuvar rayonunun Əliabad kəndinin yeni yaşayış massivində qaz, Neftçala rayonunun Aşağı Surra, Biləsuvar rayonunun Xırmandalı kəndlərində içməli su, Neftçala rayonunun Aşağı Surra, Salyan rayonunun Sarvan kəndlərində və Biləsuvar rayonunun Əliabad kəndinin yeni yaşayış massivində yol problemləri mövcuddur. Hər 3 rayonda yeni iş yerlərinin açılması da kifayət qədər aktualdır.

Ümidvaram ki, 2025-ci il büdcəsinin dəqiqləşdirilməsində və növbəti illərdə büdcənin hazırlanmasında hökumətimizin diqqətinə çatdırdığım bu problemlər öz həllini tapacaqdır.

2025-ci ilin sosial-iqtisadi prioritetlərini ehtiva edən büdcə layihəsini müsbət qiymətləndirir və hökumət üzvlərinə fəaliyyətlərində uğurlar diləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Günay xanım. Mən gördüm, Tənzilə xanım yazıldı, sonra silindi. Tənzilə xanım, bizim 3 dəqiqə vaxtımız var. Xahiş edirəm, əgər istəyirsinizsə, buyurun.

**Tənzilə Rüstəmxanlı.** Çox təşəkkür edirəm, xanım sədr. Mən komitə toplantısında çıxış etdiyimə görə burada yazıldım, amma gec oldu, çıxış edə bilmədim. Sadəcə, bəzi məsələləri demək istəyirəm.

Mənim millət vəkili olduğum bölgə ən ağır bölgələrdən biridir. Mən o bölgədən seçilən zaman, – sonra təklif-

lərimi hökumətə təqdim edəcəyəm, – əlbəttə, bütün millət vəkilləri kimi, qarşılaşdığım birinci növbədə işsizlik məsələsidir. Sosial təminatla bağlı da çox ciddi problemlər var. Mən onları da yazılı olaraq təqdim etmişəm. Sadəcə, bəzi təkliflərim var.

Birincisi, işsizliyin və sosial vəziyyətin yaxşılaşdırılması, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün iş yerlərinin açılması lazımdır. Özəlliklə Neftçala təbii sərvətləri ilə zəngin olan bölgələrdən biridir, neft və qaz var. Amma bəzi məsələlər var ki, onları həll etməyin çox asan yolları var. Məsələn, ora investorları, iş adamlarını cəlb etmək olar. Yaxud əhalinin işsizlikdən əziyyət çəkdiyi bir bölgə olduğundan, – dünən burada hörmətli Hikmət müəllim ciddi bir məsələ qaldırdı, dedi ki, ideoloji olaraq insanlarımızın beyinlərini yuyurlar və onları ələ keçirirlər, – istifadə edib, özəlliklə o qaragüruh dediyimiz qüvvələri meydana sürürlər və dövlətin əleyhinə qaldırırlar. Ona görə də bəzi yerlərdə, özəlliklə mənim millət vəkili olduğum bölgədə bunu dəfələrlə sınayıblar. Burada iş yerlərinin açılması, məsələn, mən təklif etmişəm, neft bölgəsi olduğu və dənizə çıxdığı üçün, şoran torpaqlardır, orada bir duz zavodu tikilə bilər. Çünki yodlaşdırılmış duzu hazır əldə etmək olar. Yaxud, orada, məsələn, müalicə mərkəzləri açıla bilər. Bunlar hamısı iş yerləri deməkdir. Sonra 10 kəndin, məsələn, tibb sahəsində bir poliklinika, Xol bölgəsində, 43 kilometr mərkəzə uzaqda yerləşir və bir...

**Sədrlik edən.** Tənzilə xanım, xahiş edirəm, təkliflərinizi yazılı surətdə çatdırın. Bu dəqiqə Sizin dedikləriniz, əslində, birinci məsələyə aiddir, ancaq yenə də verin. Hər bir deputatın ixtiyarı var, təkliflərini versin.

Mən istərdim, sözü Sahil müəllimə verim. Sahil müəllim, mən Sizi bura dəvət edirəm, məsələlər çoxdur, xahiş edirəm, gəlin, bunların hamısına açıqlamalar verin, həmişə olduğu kimi, suallara cavab verin. Sonra biz səsverməyə keçəcəyik. Buyurun.

**Sahil Babayev,** *Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən həm dünənki iclasımızda, həm də bu gün qaldırılmış məsələləri mümkün qədər qeyd etdim və hər bir istiqamətdə cavablandırmağa çalışacağam. Əgər hər hansı bir sual açıq qalarsa, xahiş edirəm, sonra müraciət edilsin, onu da aydınlaşdıraq, millət vəkillərimizə ətraflı məlumat verək.

İlk öncə qeyd edim ki, bizim çox məhsuldar komitə iclaslarımız keçdi. Bu komitə iclaslarının hər birində 3 saatdan artıq bir vaxtda qaldırılan sualları cavablandırmağa çalışdıq. Əgər təqribən düz yadımda qalıbsa, 40-a qədər sual cavablandırıldı. Mən düşünürdüm ki, o verilən cavablar qane edib, çünki cavablar üzrə bizə geri dönüş olmamışdır. Amma onların bir çoxu təkrar qaldırıldı. Belə çıxdı ki, komitə iclaslarında müzakirə etməyimizin, sualları cavablandırmağımızın ciddi effekti olmayıbdır. Verilmiş izahatlara, məlumatlara baxmayaraq, o məsələlər təkrar, həm də eyni formatda qaldırıldı.

İlk öncə qeyd edim ki, Azərbaycan hökumətinin, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsasını vətəndaşın rifahı təşkil edir. Dövlət başçımız dəfələrlə elan edib: “Azərbaycanda həyata keçirilən siyasətin əsasında Azərbaycan vətəndaşının rifahı durur və onun sosial təminatı birbaşa olaraq hökumətin daim nəzarətindədir”.

Yaddan çıxarmaq lazım deyil ki, cəmi 5 illik bir dövrdə

Azərbaycanda 4 böyük sosial islahat paketi həyata keçirilib. Dövlət başçımız növbətinin də anonsunu verdi, yanvardan etibarən növbəti sosial islahatlar həyata keçiriləcək. Bu 4 sosial islahat paketi cəmi 5 illik bir dövrdə 4 milyon insanımızı əhatə etdi. 7 milyard manat vəsait ayrıldı. Sizin hər biriniz dövlət büdcəsini, dövlət büdcəsində hər bir parametr üzrə xərcləri qiymətləndirirsiniz, dəyərləndirirsiniz. Hər ilin büdcəsində əhaliyə ödənişlərin əlavə 7 milyard manat artırılması nə deməkdir, hər halda, millət vəkilləri hər kəsdən gözəl başa düşürlər. Bu, birbaşa dövlət başçımızın, hökumətimizin Azərbaycan vətəndaşına, onların sosial təminatına verdiyi dəyər və önəmdir.

Bu dövr ərzində, – qısa, çox kiçik bir dövrdür, – ölkədə minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artdı, orta aylıq pensiya 2,4 dəfə artdı. Ən həssas təbəqədən olan, müavinət, təqaüd alan insanların ödənişləri 5 dəfə artdı. Əgər 2019-cu ildə bizim verdiyimiz müavinətin, təqaüdün məbləği cəmi 400 milyon manat idisə, 2024-cü ildə artıq biz həssas təbəqədən olan, əlilliyi olan, yaşlı insanlarımıza və bu həssas kateqoriyadan olan digər insanlarımıza, çoxuşaqlı ailələrə 1,9 milyard manat ödəniş həyata keçiririk.

Bu dövr ərzində əmək bazarında, məşğulluq sistemində çox böyük bir transformasiya baş verdi, əmək müqavilələrinin sayında 600 minə yaxın artım oldu. Ölkənin əməkhaqqı fondu 3 dəfə artdı. Yəni bizim 600 min vətəndaşımız rəsmi şəkildə işləməyə başladı. Bunun bir qrupu yeni yaradılan iş yerləridir, digər qrupu isə qeyri-formal məşğulluqda olan insanların əmək münasibətlərinin leqallaşdırılmasıdır. Bu isə onların sosial hüquqlarının təminatıdır, onların sosial sığorta hesablı müavinətlər alması-

dır, onların işdən sığorta mexanizmi ilə əhatə olunmasıdır. Yəni görülmüş işlər, atılmış addımlar kifayət qədər böyük bir rəqəmi, böyük bir istiqaməti və əhalimizin böyük bir hissəsini əhatə etdi. 4 milyon insanı əhatə edən sosial islahatlar paketi, əhalinin 40 faizini əhatə edən bu proqramlar hər halda hökumətin niyyətinin, dövlət başçımızın siyasətinin ən böyük, ən bariz göstəricisidir.

Şəhid ailələri, müharibə əlilləri, müharibə veteranlarına diqqət, onlara qayğı ilə bağlı qeyd olundu. Ümumilikdə, bu məsələ dövlət başçımızın daim diqqətindədir. Məhz sosial islahatlar paketi çərçivəsində ən böyük hissə bizə tarixi Zəfərimizi qazandıran ordumuzun mənsubları, ilk növbədə şəhid ailələri, müharibə əlilləri və digər müharibə iştirakçıları ilə bağlı olan proqramlara yönəldildi. Bu dövr ərzində bizim 130 min şəhid ailəmiz, müharibə əlilimiz, müharibə veteranımız dövlətin müxtəlif dəstək proqramları ilə əhatə olundu. 106 min şəxsə sosial ödəniş təyin olundu. Burada 106 min nəfər nadir şəxsdən söhbət gedir. Hər biri ilə əlaqədar xüsusi olaraq müvafiq dövlət qurumlarının qapılarına gedildi, sənədlərini birgə hazırladılar və çox qısa bir müddətdə onların sosial ödənişlərini təyin etdilər.

Artıq 16 min şəhid ailəmizi, müharibə əlilimizi evlərlə təmin etmişik. Çox böyük rəqəmdir. Artıq 16 min ailənin evlə təminatı həyata keçirilib. 7700 müharibə əlilimizi avtomobillərlə təchiz etmişik. 24 min şəhid ailəsini, müharibə əlilini, müharibə veteranımızı məşğulluq proqramına cəlb etmişik. Onları işə düzəltmişik, onları dövlət başçımızın məşğulluq marafonu çərçivəsində elan etdiyi işlə təmin etmişik. Eyni zamanda, 12 mininə özünüməşğulluq proqramı çərçivəsində mikro təsərrüfatlar yaratmı-

şıq. Bu məsələ də qaldırılmışdı ki, müharibə veteranları, şəhid ailələri üçün özünüməşğulluq proqramı vasitəsi ilə layihələr icra edilsin. 12 min nəfər artıq bununla bağlı proqram çərçivəsində əhatə olunubdur. Dediyim rəqəmlərdən əlavə olaraq 20 mindən artıq müharibə əlili, müharibə veteranı və şəhid ailəsi üzvü də işlə təmin edildi.

Reabilitasiya xidmətləri və vasitələri ilə 68 min xidmət göstərildi. Bunların içində xüsusi ilə 600 müharibə əlilimiz Birinci vitse-prezidentimizin təşəbbüsü olan ən yüksək, ən müasir 4-cü nəsil elektron protezlərlə, təchizatla əhatə edildi. Bu gün artıq, demək olar ki, onlar öz əzalarının funksionallığının 80 faizini bərpa ediblər, idmanla məşğul olurlar, müxtəlif turnirlərdə iştirak edirlər.

Bir məsələ qeyd olundu ki, Çernobıl əlilləri, 20 Yanvar əlilləri yaddan çıxıb. Əlbəttə ki, yox. Onlara bütün sosial ödənişlər həyata keçirilir. Şəhid ailələrinə, müharibə əlillərinə şamil olunan bütün sosial paketlər Çernobıl əlillərinə də, 20 Yanvar əlillərinə də şamil olunur. Təkcə bu kateqoriyadan olanlar, Çernobıl əlilləri və 20 Yanvar əlilləri olaraq 873 ailə mənzillə təmin olunubdur.

Mən xüsusi olaraq vurğulamaq istəyirəm ki, – təşəkkür edirəm, Sahibə xanım da qeyd etdi, – biz bütün komitə sədrlərinə görülmüş işlərə dair rüblük əsasda icmal hesabat göndəririk. Mən bildiyim qədər komitə sədrləri də onu öz üzvlərinə təqdim edirlər. Bu illik icmal hesabatda dediyim rəqəmlərin hamısı göstərilibdir. Biz bu məlumata hər zaman açığıq, saytımıza qoymuşuq, eyni zamanda, həm hökumətin, həm də Milli Məclisin üzvləri ilə bölüşməyi özümüzə borc bilirik ki, bu məlumatlara dair dolğun bilgiləri olsun.

Növbəti məsələ. Pensiya sistemi üzrə qeyd olundu.

Pensiya sistemi üzrə aparılan islahatlar, görülən işlər, onun dayanıqlığının təmin olunması, sığorta prinsipinin gücləndirilməsi və bütün bu qəbildən olan məsələləri biz komitə iclasında təqribən bir saatdan artıq müzakirə etdik. Pensiya sisteminin fəlsəfəsi, dayanıqlığı, gələcək dövrdə onun əhatə dairəsinin genişləndirilərək Azərbaycan vətəndaşlarına xidmət göstərilməsi üçün aparılan islahatları da qeyd etdik.

Qeyd olunan 1-2 spesifik məsələyə cavab verməyə çalışacağam. Əlilliyə görə pensiya məsələsi qaldırıldı. Bu gün qeyd edim ki, əlilliyə görə Azərbaycanda 541 min sosial ödəniş var. 256 min şəxs pensiya, 198 min şəxs müavinət, 87 min şəxs isə təqaüd alır. Əlilliyə görə pensiya son 5 ildə 2,3 dəfə, müavinətlər 3,5 dəfə artıb. 20 faiz, 30 faiz deyil, 230 faiz, 350 faiz artıbdır. Əlilliyə görə sosial ödənişlər üzrə ümumi məbləğimiz 2018-ci ildə 1,2 milyard manat idisə, bu gün bu məbləğ 2,5 milyard manata yaxınlaşır. Təkcə əlilliyi olan insanlara ödədiyimiz vəsaitin məbləğini biz 1,3 milyard manata yaxın artırmışıq.

Qeyd olundu ki, əlilliyə görə pensiyaçılardan sığorta stajı tələb olunur. Hər halda orada anlaşılmazlıq var. Əlilliyə görə pensiyaya çıxmaq üçün sığorta stajı yalnız həmin şəxsin əmək qabiliyyətli dövrü üçün tələb olunur. Əlil olduqdan sonrakı dövr üçün belə bir tələb yoxdur. Vətəndaş əgər heç vaxt işləməyib sonradan əlil olursa, əlbəttə, sosial sığorta ödəmədiyinə görə pensiya sisteminə girə bilməyəcək, o, müavinət sisteminə girəcəkdir. Amma əgər vətəndaş işləyib sonradan əlillik qazanıbsa, əmək qabiliyyətli hər ilinə görə cəmi 4 ay sığorta stajı tələb olunur. Düşünürük ki, bu, kifayət qədər böyük güzəştli yanaşmadır.

Qeyd olundu ki, minimum pensiya artdıqca pensiyaya çıxmaq üçün pensiya kapitalı artır və pensiya sisteminə daxil olunmaqla bağlı çətinliklər yaradır. Yenə də birinci cavab ondan ibarətdir ki, pensiyanı artıraq, yoxsa artırmayaq? Əgər artırırıqsa, bu da olmalıdır, bu, sığorta sistemidir. Birini edib, digərini etməmək qeyri-mümkündür, biz sistemi dağıdacağıq. Sadəcə, biz onda ona aparacağıq ki, pensiya sistemi bankrot olsun. Amma biz nə etdik? Biz axı, eyni zamanda, çox böyük bir amnistiya proqramı elan etdik. Sizlərin dəstəyi ilə 2019-cu ildə Azərbaycanda bir qəpik belə sosial sığorta ödəmiş insana 25 il sosial sığorta stajı amnistiya ilə hədiyyə edildi və bunlar da pensiya sisteminə girə bilirlər. Bu gün 2018-ci ilə qədər dövlətə bir qəpik sosial sığorta haqqı ödəyən hər bir kəs pensiya sisteminə girə bilir. Ona 25 il hədiyyə edilir və pensiya alır. Amma insan əgər heç vaxt işləməyibsə, heç vaxt sosial sığorta ödəməyibsə, onda onun pensiya sisteminə cəlb edilməsi hansı təcrübəyə və ya hansı məntiqə əsaslana bilər? Onda biz təşviq edəcəyik ki, heç kim sosial sığorta ödəməsin. Ona görə də bu gün biz o problemin aktual olduğunu düşünmürük. Əgər vətəndaşın kiçik məbləğdə belə sosial sığortası varsa, artıq biz ona kapital amnistiyası təqdim etmiş oluruq.

İndeksasiya ilə bağlı qeyd edildi. Biz növbəti ildə 8 faizin üzərində indeksasiya proqnozlaşdırırıq. Bu indeksasiya birbaşa il ərzində ölkədə orta əməkhaqqı artımına bağlıdır, orta əməkhaqqı artımını biz ilin sonuna 8-8,3 faiz ətrafında gözləyirik. Ola bilər, müəyyən qədər fərqlər olsun. Ona əsasən də indeksasiya aparmağı planlaşdırırıq.

Cari il üçün bizim inflyasiya indeksimiz, səhv etmirəmsə, 3 faizin altında, 2,7 faiz idi. Yəni inflyasiyadan

3 dəfə artıq indeksasiya aparırıq. Bunun özü hər halda, bir daha Azərbaycan hökumətinin, Azərbaycan dövlətinin sosial yönümlü yanaşmasının ən böyük göstəricisidir. Bütün pensiyaların inflyasiya məbləğindən 3 dəfə artıq indeksləşdirilməsi. Hər halda, ən mütərəqqi addımlardan biri kimi qiymətləndirilməlidir.

Pensiya yaşı, pensiyada olma müddəti və digər məsələlərlə bağlı toxunulmuşdu. Sizə 2 önəmli rəqəmi qeyd edim. Pensiya sistemi sığorta sistemidir və bu sığorta sistemi 12 illik dövr üzərindən hesablanmış bir mexanizmdir. Bu gün Azərbaycan pensiyaçılarının pensiyada olma müddəti 14,8 ildir. Yəni normativdən belə 3 il artıqdır. Bunun özü göstəricidir ki, bizim pensiya sistemimiz əhatəlidir, bizim pensiya sistemimiz sosial yönümlüdür. Bu gün yaşa görə pensiya alan pensiyaçılarımızın 57 faizi 12 ildən artıq pensiya alır. Yəni normativdən yuxarı yaşa görə pensiyaçılarımızın sayı 57 faizdir. Bunun özü də sosial yönümlü pensiya sisteminin bir göstəricisidir. Amma biz hər zaman qeyd edirik və sizlər də bunu xüsusi vurğulayırsınız, pensiya sistemi dayanıqlı olmalıdır. Biz ona görə də müəyyən etməliyik, bütün arzularımızı, istəklərimizi icra edək, yoxsa pensiya sisteminin, sosial müdafiə sisteminin dayanıqlığını qoruyaq? Bu dayanıqlığın da ən böyük göstəricisi nədir? Cəmi 5 il öncə Azərbaycan Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 38 faizi büdcə transferti ilə formalaşırdı. Bu gün bu rəqəm 2025-ci il üçün 20 faizə düşübdür, iki dəfə azalıbdır. Bu, dayanıqlığımızın ən böyük göstəricisidir. Artıq pensiya sistemi öz gəlirləri hesabına meydana çıxan bütün öhdəliklərin 80 faizini əhatə edir. O cümlədən dövlət öhdəliklərinin də 50 faizi bu gün pensiya sisteminin sosial

sığorta gəlirləri hesabına ödənilir. Pensiya sistemi cəmi 5 illik dövrdə 3,1 milyard manat əlavə gəlir əldə edib və onun 1,5 milyardı dövlətin öhdəliklərini icra etmək üçün dövlət büdcəsi öhdəliklərinin yerinə ödənilibdir. Pensiya sistemi artıq subsidiya alan qurum deyil. Pensiya sistemi yeri gələndə ilbəil dövlət öhdəliklərinin bir qismini maliyyələşdirən bir quruma çevrilibdir.

Ünvanlı sosial yardım yoxlamaları ilə bağlı qeyd olundu. Ünvanlı sosial yardım yoxlamaları iki mərhələdən keçir. Birinci mərhələ elektron mərhələdir. Elektron sistemlər üzərindən 27 dövlət qurumundan alınan məlumatlar əsasında vətəndaşın gəlirləri müəyyən olunur və bu rəsmi gəlirlər ehtiyac meyarından aşağı olduğu təqdirdə, bu ailə namizəd olaraq ikinci yoxlama mərhələsinə ötürülür. Sizlərin də bu iclaslarda dəfələrlə bildirdiyiniz kimi, burada saxtakarlıq hallarının, başqasının adına rəsmiləşdirilən əmlakların və digər halların aradan qaldırılması üçün əyani müayinə mərhələsinə keçid olur. Əyani müayinə mərhələsinin cəmi iki məqsədi var. Birincisi, ailənin ailə tərkibi ilə birlikdə, həqiqətən, həmin ünvanda yaşamasının müəyyən edilməsi. İkincisi isə həmin evin və ailənin məişət şəraitinin rəsmi gəlirlərinə uyğunluğunun yoxlanılması. ƏIbəttə, burada hansı isə bir formatda qazan, yemək və digərlərinin yoxlanmasından söhbət belə gedə bilməz. Bütün müayinələr videoçəkilişlə olur. Bütün müayinələrin videoçəkilişi qorunur. Vətəndaşın müraciəti zamanı da o videoçəkiliş ortaya qoyulur. Çünki bir çox hallarda, çox təəssüf ki, bu mexanizmdən sui-istifadə etmək istəyənlər olur. Yaşamadığı evi göstərənlər, yüksək gəlirli ailə üzvlərini ərizə bəyannamələrində təqdim etməyənlər olur. Bir ailə 4 nəfərdən

ibarətdir, birinin gəliri var, onu göstərmirlər, digərlərini göstərirlər ki, ehtiyac meyarından aşağı düşsün və sair. Xüsusi olaraq vurğulayım ki, bu hallar az deyil.

Bu gün ünvanlı sosial yardım mexanizmi 77 min ailəni, 350 min insanı əhatə edir və ötən illə müqayisədə burada artım 30 min adamdan çoxdur. Əgər niyyət bu proqramı verməmək, ünvanlı yardımı ödəməməkdirsə, hər halda, bu artıma getməzdik. Haqqı çatan, müvafiq çərçivələrə, müvafiq qaydalara, müvafiq meyarlara uyğun olan hər kəsin proqram çərçivəsində əhatə olunmasını təmin etməyə çalışırıq.

Növbəti məsələ, məşğulluqla bağlı qeyd olundu. Məşğulluqla bağlı qeyd edim ki, cari ildə biz artıq məşğulluq mərkəzləri vasitəsi ilə 130 min şəxsi işlə təmin etmişik. Növbəti ilə planımız da bunu 150 minə qədər qaldırmaqdır. İşlə təminatın ana məqsədi Azərbaycanın mövcud insan resursları ilə mövcud əmək bazarı arasında bir körpü rolunu oynamaq, əmək bazarında insan resurslarımızın keyfiyyətinə uyğun iş yerləri tapmaq və onların işə düzəlmələrini təmin etməkdir. Qeyd etdiyim kimi, cari ildə artıq 130 min insanı müvafiq işə düzəltmişik. Növbəti ildə bu göstəricini 150 minə qaldırmağı planlaşdırırıq.

Özünüməşğulluq proqramı çərçivəsində bu ilin sonuna 92 min ailə üçün mikro təsərrüfatlar yaradılmış olacaqdır. Növbəti ildə də 8 min ailənin İşsizlikdən sığorta fondu, 1500 ailənin Dünya Bankı layihəsi vasitəsi ilə əhatə olunması, yəni 100 mindən çox ailənin bu proqramla əhatə olunması planlaşdırılır. Bu, 100 min kiçik təsərrüfatın yaradılması deməkdir. Mən düşünürəm ki, bu, Azərbaycan iqtisadiyyatının, məşğulluğun və əmək bazarının inkişafı

üçün çox önəmli bir rəqəmdir.

Özünüməşğulluq proqramı çərçivəsində verilən bütün aktivlərlə bağlı ilk öncə proqrama qəbul edilən hər bir şəxsin elektron kabineti yaradılır. Onların keçdiyi təlim proqramı ilə bağlı elektron kabinetdə məlumatlar olur. Təqdim edilən hər bir aktivin vətəndaş tərəfindən şəxsən qəbul edildiyi ilə bağlı videoçəkiliş aparılır, həmin kabinetə yerləşdirilir. Vətəndaşa həmin aktivlə bağlı bütün sertifikat və müvafiq yoxlama, qiymətləndirmə aktları təqdim olunur. Bu, önəmli bir məsələdir. Əgər bu, kənd təsərrüfatı aktividirsə, deməli, orada Qida Təhlükəsizliyi Agentliyinin, Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin və digərinin sertifikatları, yoxlamaları, sağlamlıq arayışları olur. Əgər bu, avadanlıqdırsa, orada istehsalçı, mənşə, mənbə, keyfiyyət sertifikatları olur. Vətəndaş aktivi bu sertifikatlarla birlikdə özü şəxsən videoçəkiliş altında qəbul edir, hər hansı bir etirazı olmadığını bildirir və təqdim olunan aktları imzalayır. Bu videoçəkilişlərin hamısı nazirliyin elektron səhifəsində açıq şəkildə qoyulmuşdur. Sizə müraciət edən şəxslərin adı, soyadı, FİN nömrəsindən istənilən vaxt, elə qəbul zamanı girib bu təqdimat prosesinə baxa bilərsiniz.

Mən öz vətəndaş qəbullarımı da eyni qaydada edirəm. Vətəndaşın müraciəti zamanı əgər özünüməşğulluq aktivləri ilə bağlı hər hansı bir irad varsa, kompüterdə açırıq, baxırıq və vətəndaşla birgə analiz edirik ki, siz özünüz qəbul etdiniz, razı olduğunuzu bildirdiniz. Bu da sertifikatlardır. Əlavə olaraq, imzalanmış müqavilə çərçivəsində qeyd olunur ki, bir ay ərzində aktivlərin keyfiyyətində vətəndaşın günahı olmadan baş verən hər hansı bir pozuntuya görə də ona zəmanət verilir. 30 gün müd-

dətində dəyişdirilir. Amma əgər vətəndaş 6 aydan sonra gəlib deyəcəksə ki, mənə 6 ay öncə verilən aktiv indi işləmir, əlbəttə, o, zəmanət müddəti keçdiyinə görə dəyişdirilməyəcək. Lakin 30 gün müddətində bütün aktivlərin dəyişdirilməsi aparılır.

Mən düşünürəm ki, özünüməşğulluq proqramı Azərbaycanın ən uğurlu layihələrindən biridir və bunu iddia etməyimin səbəbi də Dünya Bankı tərəfindən bu layihənin çox uğurla icra olunması və Dünya Bankının ən ali mükafatlarından birinə layiq görülməsidir. Bununla bağlı cari il ərzində məlumat da verildi. Dünya Bankı müxtəlif dünya ölkələrində həyata keçirdiyi özünüməşğulluq layihələri içərisində ən uğurlu layihələrdən biri kimi ali mükafatlarından birini bu proqrama veribdir. Hər halda, Dünya Bankında formalaşmış təcrübə sayəsində bu proqramın nə qədər çətin, yeri gələndə nə qədər ziddiyyətli və müxtəlif spekulyasiyalara açıq olduğunu da bilirdik, bunu da müzakirə etmişdik. Bu günə olan icra faizi, davamlı, dayanıqlı mikro təsərrüfat sayı bu rəqəmləri göstərməyə kifayət edir.

Peşə hazırlığı mərkəzləri ilə bağlı məsələyə toxunuldu. Çox önəmli məsələdir və düşünürük ki, Azərbaycanın əmək bazarının, insan potensialının, insan resurslarının, əmək resurslarının inkişafı üçün ən önəmli addımlardan biridir. Biz Elm və Təhsil Nazirliyi ilə birlikdə bir proqram da hazırlamışıq. Həm peşə təhsili, həm də peşə hazırlığı vasitəsi ilə insan resurslarımızın inkişaf etdirilməsi ilə bağlıdır. Bu gün biz sırf peşə hazırlığı mərkəzləri, yəni Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində peşə hazırlığı mərkəzləri üzrə 175 ixtisas üzrə təlimlər keçirik və növbəti ildə 16 min şəxsin

bu təlimlərdən, bu proqramlardan keçməsini planlaşdırırıq. Biz bunu təkcə özümüzün mövcud peşə hazırlığı mərkəzlərində etmirik, eyni zamanda, 140-dək özəl, dövlət, publik, elmi, akademik müəssisələri də cəlb etmişik. Burada çox ciddi dövlət–özəl əməkdaşlığı var və 16 min müdavimin faktiki olaraq 8 mindən artığı məhz bu dövlət–özəl əməkdaşlığı çərçivəsində özəl və akademik peşə hazırlığı müəssisələri vasitəsi ilə təmin ediləcəkdir. Bu gün biri Qarabağ regional mərkəzi olmaqla 4 mərkəzimiz fəaliyyət göstərir. Növbəti ilin birinci yarısında Quba peşə hazırlığı mərkəzinin açılması gözlənilir, paralel olaraq Masallı, Sabirabad, Şəki və Cəbrayılda peşə hazırlığı mərkəzlərinin yaradılması üzrə layihələndirmə və tikinti işləri davam edir.

DOST-la bağlı məsələ qaldırıldı. Qeyd edim ki, Birinci vitse-prezidentimizin təşəbbüsü olan DOST mexanizmi qısa bir dövr ərzində öz uğurunu artıq təsdiq edibdir. Bu günə 3 milyon 100 min vətəndaşımız DOST mərkəzlərində xidmət alıb və hər bir vətəndaş xidmət yekunlaşdıqdan sonra önündəki monitorda tam və ya qismən razı qaldığını və ya razı qalmadığını bildirir. 3 milyon 100 min vətəndaşın verdiyi səsə görə, onların 98,4 faizi göstərilən xidmətlərdən tam razı qaldığını bildiribdir. 160 xidmət göstərilir və orta xidmət müddəti 8 dəqiqə 30 saniyədir. Gəlin, bir neçə il öncəyə gedək, sosial ödəniş, pensiya alınması, məşğulluq xidmətinin əldə edilməsi üçün orta hesabla 2 ay, 3 ay sənəd, arayış toplayıb bu xidmətləri əldə etdiyimiz dövrü yada salaq və 8 dəqiqə 30 saniyə ilə müqayisə edək. Bu gün vətəndaş 8 dəqiqə 30 saniyəyə bu xidməti əldə edir.

7 regional mərkəzimiz var. Azərbaycanın bütün region-

ları üzrə bu şəbəkənin genişləndirilməsi proqramı hazırlanır, icra olunur, layihələndirilir və qısa dövrdə olacaqdır. Vurğulayım ki, DOST Mərkəzi yarandığı gündən bu günədək, artıq 5 illik bir dövrdə 61 beynəlxalq mükafat və sertifikat əldə edibdir. Bunun 12-si "Good Practice Award for Europe" – "Avropa üzrə yaxşı təcrübə mükafatı"dır. Bu gün DOST 12 istiqamət üzrə Avropaya yaxşı nümunə olaraq göstərilir. Bu gün DOST təcrübəsi Özbəkistanda tətbiq edilir. Artıq orada ilk mərkəzlər fəaliyyətə başlayıb. Bu gün DOST təcrübəsi və bizim dəstəyimizlə Moldova pilot qaydada iş başlayıbdır. Serbiya və Rumıniyaya isə DOST mexanizmi əsasında elektronlaşma dəstəyi veririk. Yəni bu gün artıq bu təcrübə digər ölkələrə ixrac olunur və Azərbaycanın "ASAN" mərkəzləri kimi növbəti bir inzibati idarəçilik brendinə çevrilibdir.

Əlilliklə bağlı qeyd olundu, çox qısa toxunacağam. Hər halda bununla bağlı komitə iclasında geniş məlumat vermişdim. Təkcə bu il 40700 şəxsə biz əlillik təyin etmişik. Bunun yarısı ilkin, yarısı isə təkrar əlillik təyinatıdır. 41 minə yaxın insana əlillik təyin edilibdir. Əgər deyildiyi kimi, çətindirsə, pisdirsə və sair, bu 41 min insan onu necə alıbdır? Əlilliyin təyinatı mexanizmi barədə dəfələrlə müzakirə etmişik, qeyd olunub ki, bu, iki mərhələdən ibarətdir. Birinci, tibb müəssisələri tərəfindən xəstənin vəziyyəti araşdırılır. Sonra elektron məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunur. Avropa İttifaqının direktivləri, Ümumdünya Səhiyyə Təşkilatının direktivləri əsasında və sizlərin dəstəyi ilə beynəlxalq normativlərə uyğun yeni meyarlar hazırlandı və bu meyarlar təsdiq edildi. Meyarlar xeyli yumşaldıldı. Bu gün haqqı çatan hər bir kəsin əlilliyinin təmin

edilməsini biz ən ümdə, ən vacib missiyamız hesab edirik. Əlbəttə, mən hər bir fərdi halla bağlı indi heç bir şey deyə bilmərəm və ona görə də mənim komitə iclasında da müraciətim olmuşdu ki, xahiş edirəm, fərdi hal barədə yazılı məlumat təqdim edin, araşdıraq, məlumat verək. Amma komitə iclasından keçən dövr ərzində də fərdi hallar barədə, sırf bu məsələ üzrə mənə hər hansı bir məlumat təqdim edilmədi.

Ümumilikdə, qeyd edim ki, hörmətli Sahibə xanımın, hörmətli millət vəkillərinin dəstəyi ilə bizim çox geniş və çox məhsuldar əməkdaşlığımız formalaşıb. Ötən il Milli Məclislə nazirliyimiz arasında sənəd dövriyyəsi 6 min sənəddən çox olub. Bu ilin 10 ayında artıq 5 mini keçmişik. Dəqiq rəqəm 5087-dir. Sizlərdən gələn müraciətlərin ətraflı araşdırılması, təkrar müayinələrə ehtiyac varsa, təkrar müayinə yoxlamalarının həyata keçirilməsi və ətraflı cavabın verilməsi, əlbəttə ki, ən vacib işlərimizdən biridir və bunu mən ardıcıl olaraq davam etdirəcəyimizi bildirmək istəyirəm. Əksər millət vəkillərimizlə, demək olar ki, mən, ya müavinlərim və ya agentliklərin sədrləri həftəlik təmasda oluruq, təqdim olunan siyahılar üzrə ətraflı məlumatlar hazırlayıb sizlərə təqdim edirik. Burada, əlbəttə ki, bizim apardığımız rəqəmsallaşma çox böyük rol oynayır. Bu gün nazirliyin həyata keçirdiyi 160 xidmətin 145-i tam elektron platforma üzərindən həyata keçirilir və cari ilin birinci 9 ayında elektron xidmətlərimizin sayı 400 milyonu keçmişdi. Bunun maraqlı hissəsi ondan ibarətdir ki, 400 milyon müraciətin cəmi 15 faizi, 60 milyonu vətəndaşlarımızla bağlı idi, onların birbaşa müraciətləri idi. Yerdə qalanları biznes və dövlət qurumlarının elektron sorğuları idi. Amma 10 milyon əhalisi olan bir ölkə üçün

60 milyon elektron xidmətin göstərilməsi də hər halda çox ciddi bir göstəricidir. Ona görə də mən bizim bu əməkdaşlığa açıq olduğumuzu bir daha bildirmək istəyirəm. Məmnuniyyətlə həm komitə iclaslarında, həm də Musa müəllimin dəstəyi ilə təşkil etdiyimiz dəyirmi masalarda müxtəlif istiqamətlər üzrə sualları cavablandırmağa çalışdıq. Böyük məmnuniyyətlə bunları da təkrar etməyə hazırıq. Bizim niyyətimiz, məqsədimiz sizlərin də dəstəyi ilə Azərbaycan hökumətinin sosial siyasətinin uğurla həyata keçirilməsidir. Mən inanıram ki, birlikdə bu siyasəti ən uğurlu şəkildə həyata keçirəcəyik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sahil müəllim, çox sağ olun. Siz 30 dəqiqə bizə, hörmətli həmkarlarımıza çox ətraflı bir məlumat verdiniz. Burada bu iki məsələ ilə bağlı bizdən 30 nəfər deputat danışdı. Hər birinin də hansı isə sualları, təklifləri var idi. Düzdür, bəzilərinin çıxışlarında, əslində, büdcə məsələlərinə toxunulurdu. Ancaq Sizə aid olan məsələlərə, həmişə olduğu kimi, xahiş edirəm, ətraflı baxın, məlumat verin. Bu, bir.

İkincisi, Sizin verdiyiniz hesabat, əgər təzə nə isə varsa, təzə variantı varsa, xahiş edirəm, onu bizə çatdırın, çünki bizim 30 nəfərdən çox yeni seçilən deputatlarımız var.

Fərid müəllim, öz vəsaitimizlə, bizdə olan şəraitlə bəlkə biz onu çoxaldaq, yeni seçilən deputatlara da verək. Musa müəllim, Sizdən xahiş edirəm, biz Sizinlə bundan əvvəl danışmışıq, bu haqda mən dünən də dedim, dinləmələr aparacağıq, mən düşünürəm ki, bu sualların çoxluğunu nəzərə alaraq, sessiyada bir dəfə ətraflı dinləmə keçirmək mütləqdir. Bu sualların hamısını toplamaq və komplektləşdirib, sonra müzakirəyə çıxarmaq lazımdır.

Üçüncü, Musa müəllim, dediyim dəyirmi masadırmı,

sonra 3-4 nəfər baxın, – mən bununla bağlı Əhliman müəllimə də demişdim, – sosial məsələdir, Sizə aid olan məsələlərdir, mütləq “YouTube” kanallarına çıxmaq, cəlb etmək lazımdır ki, camaat buna baxsın. Bizim seçicilərimiz bunların hamısına baxsınlar. Çünki bir çox məsələlər və suallar elə bu sahəyə aiddir.

Çox sağ olun. Hörmətli deputatlar, dediyim kimi, bu iki məsələ ilə bağlı 30 nəfər çıxış etdi. Mən düşünürəm, həmişə olduğu kimi, kim yazılmışdı, mən hamıya söz verdim. İndi isə mən qanun layihələrini bir-bir səsə qoyuram. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 4-cü məsələyə keçirik və bu məsələ Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Buyurun, Azər müəllim.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, təqdim olunmuş qanun layihəsinə komitədə Əmək və sosial siyasət komitəsi ilə birlikdə baxılmışdır. Qeyd etmək lazımdır ki, təqdim olunmuş qanun layihəsi, ümumiyyətlə, büdcə zərfinin əsas layihələrindən biridir.

2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsinə əsasən əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 270 manatdan 285 manata, əmək qabiliyyətli əhali üçün 287 manatdan 305 manata, pensiyaçılar üçün 222 manatdan 232 manata, uşaqlar üçün 235 manatdan 246 manata artırılır. Bu artımlar ölkə üzrə təxminən 5,5 faiz təşkil edir. Bu da nəzərdə tutulmuş inflyasiya proqnozundan yüksək bir rəqəmdir. Hörmətli deputat həmkarlardan bu layihənin dəstəklənməsini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Musa

müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli Azər müəllim ətraflı məlumat verdi. Məsələ birgə komitə iclasında müzakirə olundu və hər iki komitənin deputatları gündəlikdəki bu məsələni yekdilliklə dəstəklədilər. Bizim rəyimiz müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

Bir məsələni xatırlatmaq istəyirəm. Sadəcə, çıxışa yazılanlar var, mən baxdım. Komitə iclaslarında da bu sual qalxdı. Ola bilər, minimum istehlak səbətinin tərkibi barədə məlumat soruşarlar. Buna qanuna görə 3 ildən bir baxılır. 2021-ci ildə baxılıb və minimum istehlak səbətinin tərkibi olduğu kimi saxlanılıbdır və bir də növbəti ildə baxılacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Çıxış etmək istəyənlər var. Razi Nurullayev. Razi müəllim, buyurun.

**Razi Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Qanun layihəsi çox vacib qanun layihəsidir. Bütün vacib qanun layihələrinin nə olub-olmamasından asılı olmayaraq, lehinə səs verirəm və lehinə səs verəcəyəm.

Mən, əlbəttə, Sizi dəstəkləyirəm və təşəkkür edirəm. Siz ümumi dinləmə ilə bağlı bir fikir bildirdiniz ki, bu cür sosial məsələlər polemika şəklində müzakirə olunmalıdır və bununla bağlı tapşırıq verdiniz. Mən Sizə təşəkkür edirəm. Mənim, təbii ki, tənqid etmək fikrim yoxdur. Amma Sahil müəllimin dediyi məsələlər, başa düşürəm, çox çətindir. Sosial sahədə 10 milyon insanın, demək olar,

hamısı ilə bağlı hər hansı bir qərar verilməlidir və çox çətin bir vəzifədir. Amma, ümumilikdə isə, məsələ bu şəkildə cavablandırılanda məsələlərə aydınlıq gəlmir. Yəni statistika deyilir, statistika hər yerdə var. Məsələn, mən, sadəcə, bir misal çəkəcəyəm. "A" var, "b" var, deyək ki, "a" almayan, "b" alan bir kütlədir. Bu 10 milyon insanın içərisində. "A"nın da evi var, təbii ki, "b"nin də evi var, "a" da harada isə işləyir, "b" də harada isə işləyir. "A" da nə isə evinə alıb gətirir, "b" də alıb gətirir. Bu, göstərici ola bilməz.

O baxımdan, mən düşünürəm ki, mahiyyəti üzrə hər hansı bir məsələni, tutaq, deyirəmsə və yaxud deputat dostlarımız deyirsə, demək, nə isə onun səbəbi var ki, deyir və bu məsələnin cavablandırılması, onun həlli yolları o şəkildə alınmır. Mən, açığı, başa düşürəm ki, çox çətin bir məsələdir. Bununla bağlı çoxlu, saatlarla müzakirələr gedə bilər. Onun üçün də Sizin dediyiniz o müzakirənin olmasını mən istəyərdim və istərdim ki, bax, o məsələlər dostcasına, əməkdaşcasına birlikdə müzakirə olunsun və belə narazılıqlar da olmasın. Təbii ki, mən də bunun tərəfdarı deyiləm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Razi müəllim, mən elə bildim, Siz qanun layihəsi ilə bağlı çıxış edəcəksiniz. Təbii ki, dostcasına danışmaq lazımdır, düşməncəsinə yox. Çünki hamımız bir ölkənin vətəndaşıyıq. Hər birinin ürəyi necə yanırsa, mən əminəm ki, nazirliyin işçilərinin də hər birinin ürəyində vətənə, bu dövlətə böyük sevgi var. O ki qaldı Siz deyirsiniz, ayrı-ayrı məsələlər, fərdi məsələlər, burada nazir dedi, xahiş olundu ki, hər bir fərdi məsələni yazın, təbii, bunların hamısına baxılacaq. Mən də təkrar etdim ki, xahiş edirik, hörmətli həmkarlarımızın suallarına fərdi

olaraq da cavab verin. Qanun layihəsi ilə bağlı heç nə deмək istəmədiniz, deyəsən. Ancaq qəbul edirsiniz. Fatma Yıldırım. Buyurun, Fatma xanım.

**Fatma Yıldırım**. Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsi ölkəmizin dinamik inkişafının göstəricisidir. Möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurlu və mütərəqqi sosial siyasət həyata keçirilir. Ölkəmizdə iqtisadi inkişaf nəticəsində sosial ayırmaların həcminin artırılması, əhalinin ümumi rifah halının yüksəldilməsi dövlətin sosial siyasətinin prioritet sahəsi kimi diqqət mərkəzindədir. Bu da onu göstərir ki, Azərbaycanda vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin qarşıya qoyduğu ən önəmli məqsədlərdən biridir.

Ümumiyyətlə, davamlı inkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərməkdədir. Bütövlükdə, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, yeni sosial obyektlərin tikintisi dövlətimizin sosial siyasətinin prioritet istiqaməti hesab olunur. Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosial yönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir.

Bütün bu amillər 2025-ci ilin dövlət büdcəsində, o cümlədən Dövlət Sosial Müdafiə Fondunun büdcəsində də öz əksini tapıbdır. 2025-ci ildə əhalinin əməkhaqlarının, pensiyalarının və digər sosial ödənişlərin artırılmasının nəzərdə tutulması da bu baxımdan xüsusi vurğulanmalıdır.

O cümlədən Azərbaycanda şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin təmin edilməsi, onların rifah halının yüksəldilməsi və problemlərinin həlli dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Bu istiqamətdə dövlətimizin böyük diqqət və qayğısı mövcuddur.

Hörmətli həmkarlar, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan sosial siyasətin əsas qayəsini ünvanlılıq, ədalətlilik və bərabərlik təşkil edir. Məhz bu siyasətin nəticəsidir ki, cəmiyyətimizdə ünvanlılığa, ədalətə və bərabərliyə əsaslanan güclü sosial müdafiə sistemi yaradılıb. Bütün bunlar deməyə əsas verir ki, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Yeni sosial layihələrin həyata keçirilməsi də, hesab edirəm, çox təqdirəlayiqdir.

Mən hökumət üzvlərinin iclasda iştirak etməsindən istifadə edərək bir təklifimi səsləndirmək istəyirəm. Yaxşı olardı ki, aztəminatlı və həssas kateqoriyaya aid olan ailələrdə yeni doğulan körpələrə ən azı 6 ay ərzində dövlət hesabına uşaq qidaları verilsin. Çünki aztəminatlı ailələrin bu xərci qarşılamaq üçün maddi imkanları məhduddur. Bir sıra ölkələrdə də belə bir təcrübə mövcuddur. Bu məsələdə dövlətin yardımı həmin ailələrə sosial maddi dəstək olmaqla yanaşı, demoqrafik vəziyyətimizə də müsbət təsir göstərə bilər.

Mən çıxışımın sonunda qanun layihəsinə səs verəcəyimi bildirir, həmkarlarımı da səs verməyə dəvət edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli millət vəkilləri. Təqdim olunan qanun layihəsi ilə əlaqədar qeyd etmək istərdim ki,

burada hər iki qanun layihəsini – Azərbaycan Respublikasının 2025-ci il üçün yaşayış minimumu və ehtiyac meyarı ilə əlaqədar qanunları hər dəfə büdcə layihəsinə baxılarkən müzakirə və qəbul edirik. Mənə elə gəlir ki, növbəti illərdə bunların həm təqdimatı, həm də yanaşma baxımından meyarları bir az dəyişilməlidir. Meyarlar müəyyən olunmalıdır ki, ehtiyac meyarı nədir, bunun müqayisəli təhlili aparılsa, daha yaxşı olar. Yəni komitə iclaslarında da mən bunlara o qədər rast gəlmədim, Avropa ölkələrində bunlar necə ölçülür, yeni müstəqillik əldə etmiş ölkələrdə necə ölçülür, necə müəyyən olunur?

Minimum əməkhaqqı, minimum pensiya bəllidir, aşağı həddir. Bu göstərilir, bəlli olur ki, bu, minimum əməkhaqqıdır və qalan əməkhaqları da, pensiyalar da buna görə müəyyən olunmalıdır. Hesab edirəm ki, digər meyarlara yanaşma tərzi bir qədər dəyişməlidir və gələcəkdə buna biz yenidən baxsaq, yenidən planlaşdırsaq, təqdimatını hər il eyni şəkildə verməkdən daha geniş şəkildə etsək, daha məqsədəuyğun olar. Hesab edirik ki, bu səpkidə məqsədəuyğundur.

Hörmətli xanım sədr, Siz burada çox gözəl qeyd etdiniz, biz də hər bir çıxışımızda ona toxunuruq. Bilirsiniz, indi hər bir deputat ayda iki dəfə öz dairəsində görüş keçirir, komitə sədrləri üç dəfə görüş keçirir. Burada da qəbul günləri var. Ayda üç dəfə vətəndaşlarla canlı ünsiyyətdə oluruq və onların fikirlərini, rəylərini, şikayətlərini dinləyir, ərizə və müraciətlərini qəbul edirik, dərhal aidiyyəti strukturlara göndəririk. Bunun hesabatını da Milli Məclisin Aparatına təqdim edirik və hər bir şəxsin göndərdiyi məktublarla bağlı hesabatlar aparılır. Söhbət burada nədən gedir? Biz çalışmalıyıq ki, olan reallıq və həqiqətlər birbaşa vətəndaşa çatsın. Məsələn, müqayisə

gətirirlər ki, dövlət şəhid ailələrinə birbaşa 11 min manat verir. Lakin dövlətdən başqa onlara digər strukturlar – Heydər Əliyev Fondu da 11 min manat verir, YAŞAT Fondu da 11 min manat verir. Yəni bu gün "YouTube"da çıxış edənlər o 11 mindən yapışır, 33 mindən deyil. Biz istəyirik ki, bu, 33 minə çatdırılsın. Yaxud Rusiyanı və başqa yerləri göstərirlər. Biz deyirik ki, bir uşağı olana ikiotaqlı, iki uşağı olana üçotaqlı mənzil verilsin. Bu, əgər Bakı şəhərində verilirsə, 100 min manatdan artıq pul deməkdir. Yəni əlavə bunun üstünə 100 min manat gəlir, təqdim olunur. O, eyni zamanda, pensiya alır, müavinətlər, Prezidentin müavinəti, 500 manat əlavə pul və sair. Bunlar hamısına təqdim olunur. Biz bunları lazımi qaydada indi öz tərəfimizdən çatdırırıq, digərləri də bunu bu formada çatdırsın ki, vətəndaş bunu oxuyanda "YouTube"da aldadanın ardınca getməsin, onun təbliğatının təsiri altına düşməsin. O məsələni qaldıranda, onun seçdiyi millət vəkili həmin məsələni qaldırmayanda, deyir ki, deməli, o məni daha çox istəyir, ona görə bu məsələni qaldırır. Niyə mənim millət vəkilim yox?

Parlament diskussiya yeridir, burada diskussiya aparmalıyıq və həqiqəti tapıb müəyyən qanunu qəbul etməliyik. Ona görə də bu diskussiyalara normal baxmaq və normal qeyd etmək lazımdır. Kim nə cür yazır-yazsın, söhbət ondan getmir. Heç kimin heç kimlə şəxsi-qərəzliyi yoxdur. Bizim hamımızın marağı dövlət başçısının apardığı siyasətdir, onun müdafiəsidir, dövlətimizin gücüdür. Mən qanun layihəsinə səs verəcəyəm, həmkarlarımı da buna dəvət edirəm. Bu layihəyə səs verin.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Elə ona görə də mən təbliğ edirəm ki, bu dinləmələr çoxalsın və

keçən 5 ildə, 4 il 7 ayda, yadınızdadır, müxtəlif mövzularla bağlı 41 dinləmə keçirdik. Elə dinləmələr zamanı mən həmişə təklif edirəm, dəyirmi masalar olsun. Həmişə komitə sədrlərindən xahiş edirəm ki, öz iclaslarınıza ayrı-ayrı komitələrin üzvlərini çağırın. Təbii, bunların hamısını etmək lazımdır. Çox sağ olun ki, Siz də bunları indi təsdiq etdiniz. Hörmətli həmkarlar, daha çıxış edən yoxdur, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz indi 5-ci məsələyə keçirik. Bu, Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Layihəni təqdim etmək üçün mən hörmətli Musa müəllimə söz verirəm. Musa müəllim, sizin komitənizin məsələsidir, buyurun, məlumat verin.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ehtiyacı olan ailələrə ünvanlı sosial yardımın təyin edilməsi üçün əsas indikator olan ehtiyac meyarı cari ildəki 270 manatdan 15 manat artırılaraq 285 manat müəyyən olunur. Bu o deməkdir ki, ehtiyac meyarı bu il də yaşayış minimumuna bərabər tutulacaqdır. Artıq 3 ildir ki, ehtiyac meyarı yaşayış

minimumuna bərabər tutulur. Mənim yadımdadır, biz 2006-cı ildə "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanun qəbul edəndə belə bir proqnozumuz var idi ki, 20 il ərzində ehtiyac meyarı gəlib yaşayış minimumuna bərabərləşəcək. Amma heç 15 il də çəkmədi ki, biz bu reallığı təmin edə bildik. Bu da Azərbaycan dövlətinin sosial-iqtisadi uğurlarının və aparılan siyasətin sosial yönümlü olduğunun daha bir göstəricisidir.

Bəzi hallarda bizim hörmətli deputatlar belə fikirlər səsləndirirlər ki, daha ehtiyac meyarı yaşayış minimumuna bərabər tutulubsa, ehtiyac meyarını ləğv edək, yaxud "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna da bu mənada daha ehtiyac yoxdur. Amma biz hesab edirik ki, buna ehtiyac var. Çünki gələn illərin proqnozunu hələ müəyyənləşdirmək mümkün deyil. Biz 20-30 il ərzində ölkədə və dünyada gedən prosesləri indidən proqnozlaşdıra bilmirik. Əgər biz bu gün ehtiyac meyarını ləğv edəriksə, 3 ildən, 4 ildən sonra tamamilə başqa bir iqtisadi situasiya yaranarsa, bu problemlə təzədən qarşılaşa bilərik. Ona görə də burada ehtiyac meyarının da, yaşayış minimumunun da qalmasının heç bir problemi yoxdur. Əsas odur ki, ölkədəki iqtisadi uğurlarımız imkan verir ki, biz ehtiyac meyarını yaşayış minimumu səviyyəsində saxlaya bilirik.

Burada hörmətli deputat həmkarlarımız iki təklif verdilər. Mən istəyirəm, onlara da cavab verəm. Hörmətli Fatma xanım təklif verdi ki, aztəminatlı ailələrdə bir yaşına qədər olan uşaqlara uşaq qidaları 6 ay ərzində dövlət hesabına verilsin. Hörmətli Fatma xanım, aztəminatlı ailələr ünvanlı sosial yardım alan ailələrdir və bizim "Sosial müavinətlər haqqında" Qanuna görə ünvanlı

sosial yardımdan əlavə bir yaşınadək uşağı olan ailələrə hər ay 100 manat müavinət məhz bu məqsədlə verilir. Yəni bu müavinət 6 ay deyil, bir il ərzində verilir.

Hörmətli Siyavuş müəllim dedi ki, ehtiyac meyarı və yaşayış minimumu təyin edərkən biz meyarları müəyyənləşdirməliyik, dəqiqləşdirməliyik. Hörmətli Siyavuş müəllim, bu meyarlar çoxdan bəllidir, çoxdan müəyyənləşibdir. "Yaşayış minimumu haqqında" Qanunda yaşayış minimumu ilə bağlı meyarlar var, "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunda da ehtiyac meyarı ilə bağlı meyarlar vardır. Deputat həmkarlarımdan xahiş edirəm, qanun layihəsini dəstəkləsinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Azər müəllim, sizin komitənizdə – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Xahiş edirəm, rəy bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, hörmətli həmkarım Musa müəllim ətraflı məlumat verdi. İqtisadi siyasət, sənaye və sahibkarlıq və Əmək və sosial siyasət komitələrinin birgə iclasında qanun layihəsinə baxılmış, dəstəklənmişdir. Hörmətli deputat həmkarlarımızı layihənin dəstəklənməsinə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Təklif var, fasiləsiz. Səsə qoymaq lazımdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, fasiləsiz.

Hörmətli həmkarlar, növbəti məsələ Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, buyurun, Siz məsələyə dair məlumat verin.

Mənə deyirsiniz, təklif edirsiniz ki, fasiləsiz, görün, 6 nəfər birdən yazılıb. Buyurun, Azər müəllim.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputat həmkarlar. Təqdim edilmiş Vergi Məcəlləsində dəyişikliklərlə bağlı qanun layihəsi büdcə zərfinin çox mühüm sənədlərindən, layihələrindən biridir. Biz bu sənədi komitəmizdə ətraflı şəkildə müzakirə etmişik və icazənizlə, həmin sənədlə bağlı bəzi məqamları qeyd etmək istərdim.

Ümumiyyətlə, Vergi Məcəlləsi, sadəcə olaraq, vergi münasibətlərinin iqtisadi və hüquqi rejimini müəyyən edən normativ hüquqi sənəd deyil, biz bunu bu şəkildə qəbul etmirik. Yəni Vergi Məcəlləsi təkcə vergi siyasətini müəyyən etmir. Vergi Məcəlləsi həm də dövlətin, bütövlükdə, fiskal siyasətini müəyyənləşdirir. Burada həm də dövlətin büdcə siyasəti müəyyənləşmiş olur. Vergi Məcəlləsinin arxasında, eyni zamanda, bizim iqtisadi siyasətimiz dayanır. Çünki Vergi Məcəlləsində dəyişikliklər dövlətin həm regional iqtisadi siyasətini, investisiya

siyasətini, sənayeləşməni və digər istiqamətləri dəstəklədiyinə görə, bu, həm də iqtisadi siyasət sənədi kimi qəbul edilməlidir.

Hörmətli xanım sədr, ümumiyyətlə, Vergi Məcəlləsində dəyişikliklərlə bağlı qanun layihəsinin komitə tərəfindən təqdimatında biz qanunverici orqan kimi Milli Məclisin mandatını, parlament müzakirəsi platformasının xüsusiyyətlərini, deputat həmkarlarımızın vergi kontekstində ən çox fokuslandıqları məsələləri nəzərə almağa çalışırıq və bunu önəmli hesab edirik.

Hörmətli millət vəkilləri, bir qayda olaraq, vergi ilə bağlı məsələlərin ictimai xarakterinə, vətəndaşlar və sahibkarlar üçün vergi yükünün necə dəyişdiyinə, hökumətin hansı vergi güzəştləri təqdim etdiyinə, yeni vergi şərtlərinin regionların inkişafına nə kimi töhfə verdiyinə xüsusi olaraq diqqət yetirirlər. Məhz bu baxımdan mən bəzi məqamları qeyd etmək istərdim.

Bir qayda olaraq, Vergi Məcəlləsində dəyişikliklər edilərkən hörmətli deputat həmkarlarımız tərəfindən belə bir fikir səslənir ki, biz məcəlləni çox tez-tez dəyişirik. Bu mütəmadi dəyişikliklər biznes üçün hər hansı problemlər yarada bilir. Amma birmənalı şəkildə qeyd etməliyik ki, indi təqdim olunan Vergi Məcəlləsi layihəsində də biznes mühiti, sahibkarlar üçün hər hansı ağırlaşdırıcı şərtlər nəzərdə tutulmur və bir qayda olaraq, Vergi Məcəlləsində edilən dəyişikliklər həm də müasir çağırışlarla bağlıdır. Bu gün bizim iqtisadi siyasətimiz davamlı olaraq yeniləşir. Deməli, bu, vergi rejimində, Vergi Məcəlləsində müəyyən edilmiş müddəaların özünə də yenidən baxılmasını şərtləndirir. Bizim büdcə siyasətimiz hər il təsdiq olunmuş büdcədə yeniləşir. Bunun özü də vergi rejiminə, Vergi

Məcəlləsindəki normalara yenidən baxılmasını şərtləndirir, sahibkarlıq mühiti yaxşılaşdırılır. O cümlədən biz nəzərə almalıyıq, həmçinin sahibkarlar cəmiyyətinin, sahibkarlar sektorunun özünün də müəyyən sosial sifarişləri olur. Bu da çox müsbət bir haldır ki, aidiyyəti orqanlar sahibkarların bu çağırışlarını, bu sifarişini nəzərə alıb, Vergi Məcəlləsində müvafiq təkmilləşmələri edirlər.

Nəhayət, günümüzün reallığı həm də onunla bağlıdır ki, rəqəmsallaşma prosesi gedir və innovativ həllərin tətbiqi zəruri olur. Məhz bu baxımdan da Vergi Məcəlləsində dəyişikliklər edilməsini biz labüd və mütərəqqi hesab edirik.

Vergi Məcəlləsində dəyişiklikləri şərtləndirən həm də bugünkü müasir çağırışlardır. Bu, əsasən, "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi, sənayeləşmə siyasətimiz ilə bağlıdır. Şəffaflaşma bu gün iqtisadi siyasətin əsas hədəflərindən biridir. Gizli iqtisadiyyatla mübarizə aparılması da həmçinin hesab edirik ki, Vergi Məcəlləsində dəyişikliklər vaxtı əsas çağırışlardan biri kimi qəbul edilməlidir. Nəhayət, əsas çağırışlardan biri dövlət–özəl tərəfdaşlığının təşviq edilməsidir və bizə təqdim edilən Vergi Məcəlləsində dəyişikliklər layihəsi də ilk növbədə məhz bu çağırışı nəzərə almışdır.

Eyni zamanda, iqtisadi strategiyanın özünün tələbləri var. Bizim əsas sosial-iqtisadi inkişaf strategiyasından doğan müddəalar var və bu müddəalar da Vergi Məcəlləsində dəyişikliklərlə bağlı qanun layihəsində nəzərə alınmışdır.

Əgər Vergi Məcəlləsinin dəyişiklikləri ilə bağlı struktura baxsaq və qiymətləndirsək, qeyd etmək lazımdır ki, layihə 5 blokdan ibarət olmaqla, ümumilikdə, 75 dəyişiklikdən ibarətdir. 28 dəyişiklik investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq

subyektlərinin vergi yükünün azaldılması ilə bağlıdır. 31 dəyişiklik vergi inzibatçılığı ilə bağlıdır ki, onun 12-si nəzarət mexanizmini ehtiva edir. 5 dəyişiklik beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması istiqamətlərini nəzərdə tutur. 11 dəyişiklik texniki və redaktə xarakterli dəyişikliklərdir.

Ümumiyyətlə, təqdim edilmiş Vergi Məcəlləsi layihəsinə nəzər yetirsək, burada əsas 5 blokun əhatə olunduğunu qeyd edə bilərik. Bu, investisiya mühitinin, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması ilə bağlıdır. Vergi inzibatçılığının təkmilləşdirilməsini nəzərdə tutur. Beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması, uyğunlaşdırma xarakterli dəyişikliklər, bir də vergi nəzarəti kontekstində inzibatçılığın təkmilləşdirilməsidir. Bloklar üzrə qeyd etsək, "yaşıl iqtisadiyyat", tibbi turizm, avtomobil sənayesi və gəmiqayırma, ticarət şəbəkələri və bazarlar, mədəniyyət sektoru olaraq qeyd edə bilərik. Məlum olduğu kimi, artıq son illər Vergi Məcəlləsi, o cümlədən "Gömrük tarifi haqqında" Qanunla bağlı əgər hər hansı güzəştlər nəzərdə tutulursa, ümumiyyətlə, Vergi Məcəlləsində dəyişikliklər aparılırsa, bu, qəbul edilmiş reqlamentə uyğun bir şəkildə aidiyyəti qurumlar – Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi tərəfindən dəyərləndirilir və bu halda itkilər, yaxud gəlirlər varsa, müəyyənləşir.

Təqdim edilmiş Vergi Məcəlləsi layihəsinə əsasən, biz qeyd edə bilərik ki, aparılmış qiymətləndirmə nəticəsində dövlət büdcəsinin 10,6 milyon manat itkiləri yaranır. Bunun 7,7 milyon manatı vergi üzrədir, 2,9 milyon manatı gömrük rüsumları ilə bağlıdır. İcmal büdcədə isə, əksinə,

gəlir yaranır, bu, 8,7 milyon manatdır və bunun da əsas səbəbi Dövlət Sosial Müdafiə Fondu üzrə 19,6 milyon manat gəlirin təmin edilməsi ilə bağlıdır. Ən azı vergi və gömrük xətti üzrə itkilərin yaranması ondan xəbər verir ki, əlavə vergi yükü yaranmır və bizim vergi ödəyiciləri əlavə vergi dərəcələrinə cəlb olunmurlar.

Konkret olaraq müddəalara nəzər salmış olsaq, təqdim edilən layihədə ilk növbədə dövlət–özəl tərəfdaşlığı layihələri üzrə vergi təşviqləri nəzərdə tutulur. Burada ilk növbədə dövlət–özəl tərəfdaşlığı layihələri üzrə məhz özəl tərəfdaşların vergi yükünün azaldılması, onlar üçün təşviq paketi nəzərdə tutulur. İkinci bir istiqamət ondan ibarətdir ki, "yaşıl iqtisadiyyat"ın dəstəklənməsi məqsədi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə də istehsalçılar üçün məhz bu çərçivədə güzəştlər müəyyən edilmişdir.

Vergi Məcəlləsində dəyişikliklərin ən mühüm xüsusiyyətlərindən biri onun sənayeləşmə prosesini dəstəkləməsidir. Burada iki istiqaməti qeyd etmək lazımdır. Birincisi, yerli avtobus istehsalçılarına vergi güzəştləri verilir. Belə ki, ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə hüquqi şəxslər tərəfindən təsdiqedici sənəd əsasında istehsal məqsədi ilə avtobusların ehtiyat hissələrinin idxalının 8 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi nəzərdə tutulur.

İkinci istiqamət sənaye məhəllələrinə vergi güzəştləri ilə bağlıdır. Bu, dövlət tərəfindən yaradılan sənaye məhəllələrinin istifadəsində olan torpaq sahələrinə və əmlaklara görə idarəedici təşkilatın və operatorun torpaq və əmlak vergilərindən azad edilməsini nəzərdə tutur.

Məlum olduğu kimi, gəmi təmiri bizdə iqtisadiyyatın

əsas istiqamətlərindən biridir, bu sahənin böyük bir perspektivi var. Məhz bu, nəzərə alınaraq, Vergi Məcəlləsi layihəsində gəmi təmiri ilə bağlı qeyri-rezidentlərin sifarişi üzrə göstərilən xidmətlərə əlavə dəyər vergisinin sıfır dərəcə ilə tətbiqi nəzərdə tutulur. Ümumiyyətlə, bu dəyişiklik nəticəsində proqnozlaşdırılır ki, ölkənin regionda rəqabətli gəmi təmiri mərkəzi kimi perspektivi olacaq, əlavə dəyərin yaradılmasına dəstək veriləcək, gəmi təmiri sifarişçiləri ilə sıx əməkdaşlıq təmin olunacaq. Yeni tikinti layihələrinin əldə edilməsi perspektivləri və nəhayət, məşğulluq imkanları yaradıla bilər.

İki mühüm istiqamət tibbi turizm üçün vergi təşviqləri ilə bağlıdır. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibb xidmətlərinə görə yalnız nağdsız qaydada aparılan ödənişlər üzrə "tax-free" rejimində əlavə dəyər vergisinin geri qaytarılması nəzərdə tutulur. İkinci bir istiqamət, ümumiyyətlə, qeyri-rezidentlərin vergi yükünün azaldılması ilə bağlıdır.

Hörmətli xanım sədr, digər bir dəyişiklik torpaq sahələri üzrə icarənin əlavə dəyər vergisinə cəlb edilməməsi ilə bağlıdır. İkinci bir istiqamət xarici dövlətə məxsus nəqliyyat vasitələrinə yol vergisi üzrə vergi güzəştinin verilməsidir.

Başqa bir mühüm, olduqca əhəmiyyətli olan istiqamət mədəniyyət sektoruna vergi güzəştləri ilə bağlıdır. Bir qayda olaraq, bizdə bəzən belə təsəvvür yaranır ki, vergi güzəştləri məhz iqtisadi fəaliyyət sahəsi ilə bağlıdır. Məhz təqdim edilmiş Vergi Məcəlləsində dəyişikliklər humanitar blok üzrə çox ciddi yeni güzəşt istiqamətlərini müəyyən edir. Belə ki, güzəşt verilən subyektlərin sayı yeni layihə ilə birdən beşə qaldırılır. Əlavə edilən subyektlər,

bunlar teatr, muzey, simfonik orkestr və film prodüseri fəaliyyətidir. Qeyd etmək istərdik ki, əvvəllər, sadəcə olaraq, film istehsalı, dublyaj fəaliyyəti nəzərdə tutulurdu. Artıq Vergi Məcəlləsində yeni dəyişikliklərdən sonra teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə görə nağdsız qaydada ödənilən əlavə dəyər vergisinin 50 faizi geri qaytarılır.

5 il müddətində torpaq vergisindən tam, mənfəət vergisindən 90 faiz azadolma verilir. Güzəştlərin həcmi artırılır. Belə ki, mənfəət vergisi üzrə 75 faiz güzəşt 90 faizə qaldırılır.

Başqa dəyişikliklər bazarlara nəzarətin bazar operatoru üzərində təşkili və məsuliyyətin formalaşdırılması ilə bağlıdır. Burada uçotsuz obyektlərə görə bazar mülkiyyətçilərinə, idarəedicilərinə 2 min manat maliyyə sanksiyasının tətbiq edilməsi bir yenilikdir. Bir məsələni də xüsusi olaraq qeyd etmək istərdik ki, əgər hər hansı məsuliyyət tədbirləri üçün konkret yanaşmalar müəyyən edilirsə və bu məsuliyyət tədbirləri artırılırsa, bununla bağlı maliyyə sanksiyaları tətbiq olunursa, bu, öz-özlüyündə vergi yükünün artırılması demək deyil. Hesab edirik ki, bu cür tədbirlər həm də vergi inzibatçılığının təkmilləşdirilməsini nəzərdə tutur.

Çox mühüm bir dəyişiklik də qiymətli daşların, qiymətli metalların və onlardan hazırlanmış məmulatların, mədəniyyət məhsullarının, habelə rəsmi reyestrdə qeydiyyata alınmış daşınar əmlakın alğı-satqısı üzrə ödənişləri nağd qaydada qəbul edən şəxslərə maliyyə sanksiyasının tətbiqidir. Ümumi məbləğ əvvəllər 15 min manat nəzərdə tutulmuşdu və əgər bu məbləğ keçilərsə, ödəniş rejimi

gözlənilməzsə, bu halda sanksiyalar nəzərdə tutulur. Bu da Avropa Şurasının MONEYVAL Komitəsinin tələblərindən irəli gələn tövsiyələrlə bağlıdır.

Hörmətli xanım sədr, Vergi Məcəlləsində dəyişikliklərlə bağlı layihə məhz bu müddəaları nəzərdə tutur və hörmətli deputat həmkarlardan bu layihənin dəstəklənməsini xahiş edirik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, çox ətraflı məlumat verdiniz. İndi çıxış edənlər də var. Kim çıxış edəcəksə, xahiş edirəm, ancaq qanun layihəsi ilə bağlı danışsın. Nə büdcə məsələsi, nə də sosial paketlə bağlı, xahiş edirəm, danışmayın. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əvvəla, bu qanun layihəsini təqdim edənlərə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bu, çox ciddi inqilabi dəyişiklikləri özündə əks etdirir. Bu, Azərbaycan mədəniyyətinin inkişafına çox böyük bir imkan yaradır. Təkcə mədəniyyətin teatr, kino, muzey, simfonik orkestr kimi sahələrinə aid məsələ deyil, həm də istehlakçıların stimullaşdırılmasını təmin edən məsələdir. Yəni gedib bir tamaşaya baxacaqsan, baxandan sonra ödədiyin vəsaitin əlavə dəyər vergisi olaraq nəzərdə tutulan 50 faizini geri qaytara biləcəksən. Yəni bu, stimullaşdıracaq, çox önəmli bir addımdır. Çünki bizim kimi cəmiyyətlərdə mədəniyyətə bu cür yönəltmək mütləq vacibdir. Digər tərəfdən, bu sahədə 5 illik 90 faiz verginin tətbiq olunması da müsbət haldır. Mən başqa sahələrə toxunmayacağam, qısa olsun deyə, bu məsələdə nəyi təklif etmək istəyirəm?

Bu günlərdə bizdə Dövlət Tərcümə Mərkəzi və Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi ləğv olundu.

Təbii ki, bu, mərkəzlər formasında fəaliyyət o qədər effekt vermir. Baxın, biz təhsildə “Məktəblinin dostu” layihəsini, məktəb psixoloqunu yaratdıq. Amma faktiki olaraq məktəblinin əsas dostu müəllimdir. Məktəblinin psixoloqu da müəllimdir. Müəllimi doğru yetişdirə, hazırlaya bilsək, bu cür fəaliyyətlərə də ehtiyac olmayacaq. Yaxud hansı isə qurumları yaratdıqca, o sahədə boşluqlar daha çox olur. Teatrda da, kinoda da, ədəbiyyatda da ən axsayan tərəflərdən biri odur. Tərcümə sənəti istedadla bağlı məsələdir. Ona görə də mən hesab edirəm ki, biz buraya tərcümə sənətini də mütləq əlavə etməliyik. Çünki bu sahədə, dublyajlar və başqalarında ancaq bu sənətin keyfiyyətli olmasından çox şey asılı olacaqdır. Bu sahəyə istedadlı insanların fərdi qaydada cəlb olunmasını, onların fəaliyyət göstərməsini də stimullaşdırmalıyıq, onların da vergidən azad olunmasını, yaxud fəaliyyətinə görə müəyyən güzəştli şərtlərlə hər hansı bir vergi ödəməməsini təmin etməliyik. Bu, vacib sahədir və hesab edirəm, istər elmi-kütləvi nəşrlərin, istər, deyək ki, zəruri olan müxtəlif yeni kəşflərin, istərsə də hansı isə bir ədəbiyyatın vaxtında tərcümə olunması Azərbaycanda elmin, dünyagörüşünün artmasına xeyli kömək edə bilər.

İkinci vacib mələsə distant təhsillə bağlıdır. Mən hesab edirəm ki, biz distant təhsillə bağlı məsələdə də yenə istehlakçıları stimullaşdırmalıyıq. Məlum olduğu kimi, 4SİM bu il 10  min nəfərin, gələn il də 200 min nəfərin “Coursera” vasitəsi ilə qısamüddətli onlayn təlimini təşkil edəcək. Bu kurslar ölkəmizdə insan kapitalının formalaşmasına və məşğulluğun inkişafına dəstək olacaqdır. Bu, Stanford Universitetində hazırlanmış bir proqramdır və bunu, əslində, bizim Elm və Təhsil Nazirliyi etməli idi.

Amma indi bunu 4SİM özəl bir qurum olaraq həyata keçirir. Deməh, biz bunu stimullaşdırmalıyıq ki, onlayn təhsilə cəlb olunan insanlar da hansı isə bir vəsait ödəyirlərsə, onların da vergi yükünün azalması vacibdir. Çünki bu formada, təbii ki, nağdsız ödəniş olursa, bu da doğru yanaşmadır. Biz onlayn distant təhsilin Azərbaycanda, nəhayət, tətbiq olunmasına, genişlənməsinə şərait yarada bilərik.

Ötən dəfə də biz dedik. Bəzi kəndlərdə məktəblərin bağlanması problemi var. Xaricdə belədir, Norveçin uzaq bir adasında olan məktəbi qorumaq üçün 3 nəfər şagirdə belə hansı isə formada distant təhsil verilir. Bunu məktəbi bağlamaqla etmirlər. Elə dünyanın əksər ölkələrində bu metod işləyir. O baxımdan da, məncə, biz burada vergi yükünü distant təhsilə də aid etmiş olsaq, bu sahədə də qısa müddətdə irəliləyiş əldə etmək olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Fariz İsmayılzadə. Buyurun.

**Fariz İsmayılzadə**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirə etdiyimiz Vergi Məcəlləsində dəyişikliklər bir neçə müsbət məqamı əhatə edir. Onları dəstəkləyib həmkar millət vəkillərini qanun layihəsinin lehinə səs verməyə çağırıram.

Eyni zamanda, fürsətdən istifadə edib Vergi Məcəlləsinə bir təklif vermək istərdim. Ölkəmizdə elm, təhsil və mədəniyyət ənənəvi olaraq dövlətin məsuliyyəti olan sahələr hesab olunur. Lakin beynəlxalq təcrübə onu göstərir ki, bu sahələrin inkişafına özəl şirkətləri də cəlb edə bilərik. Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işləri dövlətimizin büdcəsinə

yükü daha da artırmışdır. Hesab edirəm ki, elm, təhsil və mədəniyyət sahələrinə özəl sektorun dəstəyini cəlb etmək, xeyriyyə məqsədləri üçün ianələri təşviq etmək lazımdır. Bunun da ən səmərəli yolu kimi ianə vəsaitlərinin şirkətlərin gəlirlərindən çıxarılmasını, daha doğrusu, vergiyə cəlb olunan mənfəətdən azaldılmasını təklif etmək istərdim. Belə vergi güzəştləri olarsa, şirkətlər universitetlərə, təhsil ocaqlarına daha çox ianə verməyə stimul qazanarlar. Ümid edirəm, bu təklif müvafiq komitələrdə diqqətlə dəyərləndiriləcək. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fariz müəllim. Elnarə Akimova. Buyurun, Elnarə xanım.

**Elnarə Akimova**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Mən də Vergi Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı qanun layihəsini müsbət tərəfləri ilə birgə alqışlayıram və dəstəkləyirəm. Sözümün mabədinə keçməzdən əvvəl bir məqama toxunmaq istəyirəm.

2021-ci ilin sonunda ədəbiyyat adamları kitab üzərindən 18 faiz əlavə dəyər vergisinin götürülməsini çox böyük məmnunluq hissi ilə qarşılamışdılar və bu, ilk növbədə naşirlər üçün çox önəmli bir hadisə idi. Onlar uzun müddət 18 faiz əlavə dəyər vergisinin götürülməsini istəyirdilər. Dəfələrlə bu barədə müzakirələrdə, diskussiyalarda polemika açırdılar və nəhayət, 2021-ci il dekabrın 3-də Vergi Məcəlləsində edilən dəyişikliyə əsasən Azərbaycanda kağız və kitab çapı sahəsi 18 faiz ƏDV-dən azad olundu.

Məsələnin həllinə görə mən ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz təşəkkürümü bildirirəm. Düşünürəm ki, bu gün humanitar

sahəyə daha çox diqqət ayrılmalıdır, daha çox güzəştlər tətbiq olunmalıdır. Məsələn, bu gün ədəbi orqanlarda çap olunan məqalələrə, Mədəniyyət Nazirliyində sifarişlə yazılan kitablara, – o kitablar çox böyük bir zəhmətlə ərsəyə gətirilir, yəni bu gün kitab ərsəyə gətirməyin çətinliyi məlumdur, bu, bir tədqiqat xarakterli, araşdırma səpkili mətnlər olur, yaxud bir məqalənin yazılması üçün yazarın necə böyük əziyyət çəkdiyi məlum bir məsələdir və bunun qarşılığında nəzərə alsaq ki, bu gün ədəbi orqanların da çox qonorar yazmaq imkanı yoxdur, – yazılan bu cür qonorarlardan da 29 faiz əlavə dəyər vergisi tutulur. Ona görə mən təklif edirəm, yaradıcı şəxs öz əziyyətinin qarşılığını almalıdır ki, onda gələcək fəaliyyət üçün bir stimul yaransın. Bu baxımdan, təklif edirəm ki, məqalə və kitablara yazılan qonorarlardan tutulan vergini maksimum azaldaq, yaxud əgər mümkünsə, ləğv edək. Yəni bu sahəyə bu səpkidə güzəştlər tətbiq olunsun ki, bu, ölkənin qələm adamlarına hazırda çox böyük bir dəstək olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Elnarə xanım. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur və mən məsələni səsə qoyuram. Xahiş edirəm, 6-cı məsələyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Azər müəllim, 7-ci məsələ də sizin məsələnizdir. Xahiş edirəm, qısa olaraq məlumat verin.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, xanım sədr. Təqdim olunan qanun layihəsi Vergi Məcəlləsində edilmiş dəyişikliklərlə bağlıdır. Bu, kod-paroldan istifadə etmə rejimi ilə bağlıdır. Vergi Məcəlləsində bu dəyişiklik edildiyinə görə uyğunlaşma çərçivəsində bütün vergi ödəyicilərinin elektron kabinetə daxil olmaq üçün kod-paroldan istifadə hüququnun məhdudlaşdırılmasını nəzərdə tutan Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunda dəyişiklik edilməsi zərurəti yaranır və layihə də məhz bu məsələni nəzərdə tutur. Hörmətli həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.23 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Azər müəllim, yenə də Sizdən xahiş edirəm, buyurun, məlumat verin.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə görə hazırda dövriyyəsindən asılı olmayaraq bütün əlavə dəyər vergisi ödəyiciləri, həmçinin ictimai iaşə fəaliyyəti ilə məşğul olan və 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi ödəyən vergi ödəyiciləri təqvim ayı ərzində 30 min manata qədər nağd ödənişlər həyata keçirə bilərlər. Sadələşdirilmiş vergi ödəyiciləri, həmçinin əlavə dəyər vergisi ödəyicisi olmayan mənfəət və ya gəlir vergisi ödəyiciləri üçün aylıq olaraq 15 min manat nağd ödəniş limiti müəyyənləşdirilmişdir.

Sahibkarlar tərəfindən müraciət nəzərə alınaraq, aidiyyəti qurumlar bunu nəzərə almış və burada limitin artırılması nəzərdə tutulmuşdur. Bu limitə görə həmçinin əsas yanaşma bundan ibarət olmuşdur ki, 2 faizlik dövriyyəyə görə faiz nisbəti tətbiq edilsin və burada diferensiallaşma aparılmış olsun. Hesab edirik ki, bu, ayrı-ayrı sahibkar strukturlarının nağd vəsaitlərə ehtiyacının ödənilməsi problemini həll edəcək və sahibkarlıq fəaliyyətində müəyyən asanlaşmanı təmin edəcəkdir. Layihənin dəstəklənməsi xahiş olunur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələ "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Ona görə də, Musa müəllim, mən sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qeyd olunan dəyişikliklər Vergi Məcəlləsinin 150.6-cı maddəsinə uyğunlaşdırma məqsədi daşıyır. Belə ki, Vergi Məcəlləsinin qeyd olunan maddəsinə əsasən vergi ödəyiciləri Azərbaycan Respublikasında fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs və qeyri-rezident daimi nümayəndəliyi ləğv edildikdə, yaxud vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə həmin məcəllədə göstərilən ümumi müddətlərdən gec olmamaq şərti ilə, 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanlarına bəyannamə verməyə borcludurlar. Vahid bəyannamə gəlir vergisi, işsizlik, tibbi və sosial sığorta birləşməsindən ibarət 4 hesabat formasında olduğundan, həmin tədiyyələr üzrə hesabatın verilməsi müddətlərinin aidiyyəti qanunlarda, yəni "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta

haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda da tənzimlənməsi məqsədi ilə uyğunlaşma həyata keçirilir.

Dəyişikliyin ikinci bir nüansı isə həyatın yığım sığortası sahəsində vergi və sosial sığorta ilə bağlıdır. Belə ki, dövlət sektoruna münasibətdə bu sığorta güzəştlərinin ləğvi nəzərdə tutulur. Bunun da nəticəsində həm dövlət büdcəsinin, həm də Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artacağı proqnozlaşdırılır. Komitədə ətraflı müzakirə olunmuşdur və komitə layihəni Milli Məclisin plenar iclasına tövsiyə etmişdir. Bütün deputat həmkarlarımdan xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda səs versinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hörmətli Əhliman müəllim, qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, Səhiyyə komitəsinin rəyini bildirin. Buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Təqdim olunan qanun layihəsini Səhiyyə komitəsi də dəstəkləyir. Xahiş edirəm, qanun layihəsini səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, növbəti məsələyə keçirik. "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu bizim 10-cu məsələmizdir. Azər müəllim, layihəyə sizin komitədə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Təqdim edilmiş qanun layihəsi 3 istiqamət üzrə gömrük azadolmalarını nəzərdə tutur. Birinci istiqamət dövlət–özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihələr üzrədir. İkinci istiqamət bərpa olunan enerji istehsalı ilə bağlı olan layihələr üçün gömrük rüsumlarının tətbiqini, onların azad olunmasını nəzərdə tutur. Nəhayət, üçüncü istiqamət ölkəmizdə yeni bir sənaye istiqaməti olaraq yerli avtobusların istehsalının təşkili üçün ehtiyat hissələrinin idxalının 2025-ci il yanvarın 1-dən 8 il müddətinə qədər gömrük rüsumundan azad olunmasını nəzərdə tutur. Layihəyə komitəmizdə baxılmışdır, dəstəklənmişdir, deputat həmkarlarımızdan da bu layihənin dəstəklənməsini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Çıxış etmək istəyən yoxdur. Məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |

İştirak edir 103
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə iki məsələmiz qalır və bunların hər ikisi Milli Məclisin qərar layihələridir. Bu layihələr Milli Məclisin və Hesablama Palatasının xərclər smetası ilə bağlıdır. Qeyd edim ki, biz bu qərar layihələrini müzakirə edəcəyik, amma bu gün qəbul etməyəcəyik. Büdcə zərfi sənədlərini üçüncü oxunuşda qəbul edəndə onlarla birlikdə biz qəbul edəcəyik. Hörmətli həmkarlar, beləliklə, biz gündəliyin 11-ci məsələsinə keçirik və bu, Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında qərar layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli Məclisin İşlər müdiri hörmətli Firudin Hacıyevə söz verirəm. Firudin müəllim, buyurun.

**Firudin Hacıyev,** *Milli Məclisin İşlər müdiri.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli sədr, hörmətli deputatlar. Bildiyiniz kimi, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 52-ci maddəsinə əsasən Milli Məclisin xərclər smetası növbəti ilin dövlət büdcəsinə baxılarkən təsdiq edilir. Gələn il üçün tərtib olunmuş xərclər smetasının layihəsi sizə təqdim edilmişdir.

Milli Məclisin və onun Aparatının 2025-ci il üçün xərclər smetasının layihəsi qanunvericilikdə nəzərdə tutulan qaydaya uyğun olaraq, ştat cədvəlləri, inzibati binaların mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələr və proqnozlar əsasında tərtib edilmişdir.

Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcə-

sində Milli Məclisin və onun Aparatının saxlanılması üçün 51 milyon 851 min 447 manat vəsait nəzərdə tutulmuşdur.

Bildirmək istəyirəm ki, xərclər smetasının ümumi dəyərinin 76,22 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir.

Nəzərinizə çatdırmaq istəyirəm ki, Milli Məclisin deputatlarının, Aparatın və İşlər İdarəsinin əməkdaşlarının xidməti otaqları, həmişə olduğu kimi, kompüter dəstləri və tələb olunan digər ləvazimatlarla təmin edilmişdir. Bu işlər mütəmadi olaraq bu gün də davam etdirilir.

2024-cü ildə Azərbaycan parlamentinə xarici ölkələrdən gələn qonaqların və Milli Məclisin deputatlarının xarici səfərlərinin, eləcə də ölkədaxili ezamiyyələrin sayı əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Bundan başqa, 2024-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin təşkilatçılığı ilə bir sıra beynəlxalq səviyyəli tədbirlər də keçirilmişdir.

2024-cü il üçün Milli Məclisin xərclər smetasında əksər maddələr üzrə malların, işlərin və xidmətlərin satınalınması "Dövlət satınalmaları haqqında" Qanunun müvafiq maddəsi tətbiq edilməklə tender və satınalma metodu ilə həyata keçirilmişdir.

2024-cü ilin xərclər smetasında nəzərdə tutulmuş vəsait hesabına Milli Məclis deputatlarının işini səmərəli təşkil etmək məqsədi ilə 2006-cı və 2009-cu illərdə plenar iclas salonunda quraşdırılmış kompüterlər yeni tipli planşetlərlə əvəz edilmişdir. Bundan başqa, Milli Məclisin avtoparkının maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə müxtəlif növ avtomobillər alınaraq istismara verilmişdir.

Həmçinin "Elektron sənəd dövriyyəsi", "Elektron kadr və maliyyə uçotu" dövlət informasiya sistemlərinin

yaradılması ilə əlaqədar tender satınalma metodu vasitəsi ilə həyata keçirilən işlər 2024-cü ilin sonuna kimi davam etdiriləcəkdir. Eyni zamanda, Milli Məclisdə "Elektron sənəd dövriyyəsi", "Elektron kadr uçotu", "Əməkhaqqı və Maliyyə-mühasibatlıq" proqram təminatlarının tətbiqi üçün server avadanlıqları alınaraq quraşdırılmışdır.

Bundan başqa, istismara yararsız hala düşmüş elektrik avadanlıqlarının yenisi ilə əvəz edilməsi, server otaqlarında və iclas salonlarında elektron səsvermə sistemlərini idarə etmək üçün ayrılmış xüsusi otaqlarda quraşdırılmış Data mərkəzində yenidənqurma işlərinin aparılması tələb olunur.

Nəzərinizə çatdırmaq istəyirəm ki, Milli Məclisin inzibati binalarında, iclas salonlarında, həyətyanı sahəsində, maşın zalında və avtoparkında mütəmadi olaraq cari təmir işləri bu gün də davam etdirilməkdədir.

Hörmətli sədr, hörmətli deputatlar. 2025-ci ilin dövlət büdcəsində Milli Məclis üçün nəzərdə tutulmuş xərclər smetasına dair əlavə açıqlamaya ehtiyac olduğu təqdirdə, suallarınıza cavab verməyə hazıram.

Sizdən Milli Məclisin 2025-ci il üçün xərclər smetası layihəsinin təsdiq edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyənlər var. Əgər təkid etmirsinizsə, səsə qoyaq. Gülşən xanım, təkid etmirsiniz? Aydın müəllim təkid etmir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Gülşən Paşayeva**. Təşəkkür edirəm. Burada problem yoxdur. Mən çox yüksək qiymətləndirirəm. Ümumiyyətlə, Milli Məclis tərəfindən bütün millət vəkillərinə göstərilən

münasibəti yüksək səviyyədə qiymətləndirirəm. Doğrudan da, Milli Məclisin 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsini dəstəkləyəcəyəm.

Ancaq mən başqa bir məsələni, məhz Milli Məclislə bağlı daha bir vacib məsələni istərdim, gündəmə gətirəm. Mənə elə gəlir, bu, bəlkə də bizim dövrümüzdə mümkün olmayacaq, ancaq gələcək çağırışlar, gələcək deputatlar üçün bu, olduqca vacib bir məsələdir. Bəlkə də əvvəllər bu məsələ qaldırılıb, ancaq mənə elə gəlir ki, bu, aktual bir məsələ olaraq qalır. Biz gözəl başa düşürük ki, əgər, ümumiyyətlə, Azərbaycanda hakimiyyətin üç qolundan danışırıqsa, Milli Məclis qanunvericilik qolu kimi tamamilə ayrıca, özünəməxsus bir yer tutur. Bu mənada, əlbəttə, bütün deputatların, lap əvvəldə də qeyd edildiyi kimi, seçildiyimiz dairələrdə, həmin ərazilərdə özümüzün müvafiq bir ofisimiz olmalıdır. Bəlkə də mən səhv edirəm və səhvimi düzəltməyə hazıram. Mənə elə gəlir ki, bütün Milli Məclisin 125 deputatı, ola bilsin, bitərəflər üçün bu, daha böyük problemdir. Çünki partiyalardan olan deputatlar məhz həmin partiyaların ofislərində öz görüşlərini keçirə bilirlər, onların orada ofisləri yerləşir. Ancaq bitərəf deputatlar üçün... Məsələn, hələ hazırda iki ay keçməsinə baxmayaraq, mənim ofisim yoxdur. Biz icra hakimiyyəti tərəfindən... Mən belə başa düşürəm, köməkçi təyin ediləndən sonra o məsələ məndə qlobal problem olaraq yenə də qalacaq. Yəni köməkçi harada oturacaq, bu, vacib məsələdir. Ona görə də gələcəkdə biz Milli Məclisin büdcəsi ilə bağlı, bəlkə, doğrudan da, müvafiq 125 dairəni götürürüksə, indi oradan seçilən deputatlar üçün onların özünün də hansı isə ofislərinin yaradılması

düzgün olardı. Yəni mən bilmirəm, bunu necə etmək olar. Ancaq ən azı gələcək deputatlar həmin ofislərdə fəaliyyət göstərə bilərlər. Mən inanıram ki, bu gün üçün bu qeyri-realdır. Ancaq biz sizinlə gələcək büdcələrdə bəlkə bu məsələyə diqqət verə bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Gülşən xanım, çox sağ olun. Elə yerindəcə, mən elə indi deyim ki, cənab Prezidentin fərmanına uyğun olaraq, icra hakimiyyəti bunu təmin edəcək. Siz bunu demişdiniz, şəxsən mənim özümə də demişdiniz və bununla bağlı biz də artıq müraciət etmişik. Aydın müəllim, Siz artıq mikrofonu söndürdünüz. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Firudin müəllimə təşəkkür bildiririk, çox gözəl təqdim etdi və neçə illər ərzində biz Milli Məclisin bu fəaliyyətini görmüşük, mütəmadi olaraq yeni texnologiyaların tətbiqi, yeni işlərin görülməsi, xidməti otaqların yeni kompüter avadanlıqları ilə təmin olunması. Ən çətin zamanlarda, pandemiya, xəstəlik dövründə bütün iclasların yüksək səviyyədə keçirilməsini Milli Məclis Aparatı təşkil edibdir. Buna görə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk və gələcəkdə səsvermədə də yekdilliklə səs verib qəbul edəcəyik.

Bir məsələni diqqətə çatdırım ki, bəli, siyasi partiyaların istər öz yerli ofislərində, istərsə də qərargahlarında yerləri var, köməkçilər orada otururlar. Amma qeyd etmək istəyirəm ki, cənab Prezidentin tapşırığı ilə bütün dairələrin ərazisində dairə seçki komissiyalarına yeni binalar tikilibdir. Bu gün 125 dairənin 125-i də bina ilə təmin olunubdur. Bizim yeni seçilmiş həmkarlar üçün qeyd etmək istəyirəm ki, həmin dairələrdə deputat otaqları da

fəaliyyət göstərir və köməkçiləri həmin otaqlarda oturub onların seçicilərini orada qəbul edə, cavab verə və ünsiyyət yarada bilərlər. Hər bir millət vəkili üçün istənilən iclasın keçirilməsinə istər rayon, şəhər icra hakimiyyətlərində, istərsə də bələdiyyələrin ərazisində, – indi artıq biz bu bələdiyyələri birləşdirmişik, – yerlər mövcuddur və burada görüşlər keçirilə bilir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşad Musayev. Elşad müəllim, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz səsə qoymayacağıq, mən sizə bu barədə demişdim. Buyurun, Elşad müəllim.

**Elşad Musayev.** Siyavuş bəyə bircə kəlmə demək istəyirəm ki, o yerlər Yeni Azərbaycan Partiyasının deputatlarına verilib. Orada digər siyasi partiyaların yeri yoxdur ki, biz də gedək, oturaq. Ona görə, xahiş edirik, bu məsələ həll olunsun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu məsələ, bax, indi bizim müzakirə etdiyimiz əsas məsələyə aid deyil. Fərid müəllim, mən düşünürəm ki, siyasi partiyalarla bağlı sonra Prezident Administrasiyasının şöbəsi ilə danışmaq lazım olacaq.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə keçirik. Bu, 12-ci məsələdir. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında qərar layihəsidir. Məsələyə dair məlumat vermək üçün Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova söz verirəm. Vüqar müəllim, buyurun.

**Vüqar Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli millət vəkilləri, Hesablama Palatasının 2025-ci il üçün xərclər smetasını sizlərə təqdim etmək istərdim. Növbəti il üçün Hesablama Palatasının saxlanılmasına 11,5 milyon manat vəsait nəzərdə tutulur. Bu xərcin 57 faizi növbəti ildə 56 nəzarət tədbirinin keçirilməsi üçündür. Eyni zamanda, 19 faizi 6 rəyin, bir yarımillik və birillik hesabatın hazırlanması, daha 8 faizi ildə 4 dəfə çap edilən "Dövlət auditi" jurnalı, bir hesabat və bir məlumatın və 8 xülasənin hazırlanması üçündür. Daha 7 faizi isə beynəlxalq imicimizin gücləndirilməsi, o cümlədən 2 beynəlxalq layihə, 14 işçi qrupda iştirakımızın və beynəlxalq sertifikatlı əməkdaşların sayının 20 faiz artırılması məqsədlidir. Digər 7 faizi isə növbəti ildə rəqəmsal transformasiya və İT auditi üzrə bir sıra fəaliyyətlərin də nəzərdə tutulması ilə bağlıdır.

Bu xərclər hesabına Hesablama Palatasının 197 nəfər əməkdaşına əməkhaqqı hesablanılıb. Növbəti ildə dövlət başçısı tərəfindən elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"nin tələbləri nəzərə alınaraq, mətbəə və dəftərxana xərcləri 20 faiz, alınacaq ləvazimatların sayı 30 faiz, yanacaq və sürtgü xərcləri isə 5 faiz azaldılıb.

Hörmətli millət vəkilləri, xərclər smetası Hesablama Palatasının növbəti ildə fəaliyyətini səmərəli təşkil etməyə və beynəlxalq əməkdaşlığı gücləndirməyə, nəzarət tədbirlərinin keyfiyyətinin artmasına imkan verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Vüqar müəllim, çox sağ olun. Bəli, dinlədik, nəzərə alırıq.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə müzakirə olunan məsələlər artıq bitdi və iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm.

Bizim növbəti iclasımız birigün, ayın 29-da olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***27 noyabr 2024-cü il***

**Tənzilə Rüstəmxanlı.** Neftçalada yeni yolların çəkilişinə və təmirinə ciddi ehtiyac var.

- Salyandan yan keçərək Xıdırlı və Şirvanlı kəndlərinin ərazisindən dəniz sahili boyu asfalt yolun çəkilməsi ilə Neftçalanın birbaşa Bakıya çıxış yolu olur və bu məsafə 40 kilometr azalır.

- Neftçalanın Xəzər kəndindən keçməklə birbaşa Masallı rayonuna asfalt yolu çəkilərsə, bu yol Neftçala–Masallı yolunun qət olunma məsafəsini 80 kilometr azaldar.

- Neftçalanın Mirqurbanlı, Günəşli, Söyüdlü, Yeniqışlaq, Mikayıllı və bir sıra kəndlərinin sakinləri Xıllı qəsəbəsinə getmək üçün 40 kilometrə qədər yol qət edirlər. Bu da sakinlər üçün əlavə vaxt və büdcə itkisidir. Halbuki keçmiş 26-lar – Xıllı yolu çəkilərsə, bu yol 15 kilometrə qədər qısalmış olar.

- Neftçala–Yeniqışlaq–Mikayıllı avtomobil yoluna, 6 kilometr uzunluqda məsafəyə asfalt döşənməlidir.

- Qədimkənd, Pirəbbə (Xəlil Rzanın doğulduğu kənd), Boyat, Kür Qarabucaq, Qırmızıkənd, Dördlər və Mirzəqurbanlı kəndləri arasındakı köməkçi və əsas yollar istifadəyə yararsız vəziyyətdədir.

- Neftçala rayonunda şəhid ailələrinin evlərinə gedən yolların asfaltlaşdırılmasına ciddi ehtiyac var. Bu ailələrin evlərinin yerləşdiyi ərazilərdəki yollar keçilməz vəziyyətdədir.

- Neftçala şəhərində yolların işıqlandırılması ürəkaçan

deyil, məhəllələrarası, xüsusən kəndlərin işıqlandırılması bərbad vəziyyətdədir.

- Xolun 10 kəndinin arasında 43 kilometr məsafədə marşrut yoxdur. Burada avtobus xəttinin açılması zəruridir. Həmçinin Neftçaladan Yeniqışlaq və Mikayıllı kəndlərinə də avtobusların təşkil edilməsi əhali üçün yaxşı olardı.

- Qaçaqkənddə və Haqverdilər kəndində işıq dirəkləri bərbad vəziyyətdədir.

- Neftçalanın şəhər, qəsəbə və kəndləri, əsasən, qazlaşdırılıb. Hələ də Qaraqaşlı, Cəngan, Bala Surra, Uzunbabalı, Şirvanlı, Qaravəlli, Yeniqışlaq, 1 və 2 nömrəli Mayak, Mikayıllı, Mirzəli, Sahil və sair kəndlərin əhalisi qaz xəttinin çəkilməsi ilə bağlı müraciətlər edirlər. Qaz xətti çəkilmiş Mirzəqurbanlı kəndinin ən azı 30 ailəsi evinə qaz çəkdirə bilmir. Belə ki, əvvəllər qaz xətti üçün çıxarış tələb edilmirdi. Kimin imkanı var, dərhal çəkdirirdi. İndi isə digər sakinlərdən çıxarış istənildiyinə görə hələ də qazsız qalıblar. Çıxarışlarını ala bilməmələrinin əsas səbəbi isə 25 il bundan əvvəl Nazirlər Kabinetinin qərarı ilə örüş sahələrinin məskunlaşma üçün əhaliyə paylanılmasıdır. Burada yaşayış evləri tikilsə də, torpaq təyinatına görə sakinlər mənzillərinə çıxarış əldə edə bilmirlər. Nazirlər Kabineti tərəfindən həmin torpaq sahələrinin təyinatının dəyişdirilməsinə ciddi ehtiyac vardır.

- Neftçalanın hələ də Xol kəndlərində evlərə su palçıq arxlar vasitəsi ilə çatdırılır. Mikayıllı, Hacımanlı, Şirvanlı və digər kəndlərə su maşınlarla pulla daşınır. Xol zonasında 10 kəndə boru və ya beton arxlar çəkilməyib. Bura relyefi çətin, dağlıq-qayalıq zona deyil. Bura Aran zonasıdır. Neftçalanın Həsənabad qəsəbəsində içməli su xətləri yararsız haldadır. Böyük su itkisini əsas gətirərək

isti hava şəraitində ayda 1 dəfə içməli su verilir. Bu da əhali arasında haqlı olaraq ciddi narazılığa səbəb olur. Su xəttinin çəkilməsi üçün heç bir problem yoxdur. Təəssüf ki, hələ də su xəttinin çəkilməsi yubadılır.

- Neftçala şəhərində kanalizasiya xətlərinin çəkilişi zəif gedir. Bəzi binalara xətt çəkilsə də, hələ də evlərə birləşdirilməyib.

- Neftçalanın bəzi yerlərində işıq xətləri pis və ya təhlükəli vəziyyətdədir.

- Neftçala şəhəri, Kimyaçılar şəhərciyində yerləşən 2 mərtəbəli binaların dam örtükləri tamam sıradan çıxıb və təcili təmir edilməlidir. Vətəndaşlardan xeyli şikayətlər almışıq. Həmçinin Xıllı qəsəbəsində yerləşən 16 mənzilli yaşayış binasının təmirinə ciddi ehtiyac yaranıb.

- Qəhrəmanlar ocağı kimi tanınan Həsənabad qəsəbəsinin 3 Milli Qəhrəmanı var. Amma o qəsəbənin məktəbi qəzalı vəziyyətdədir.

- Neftçalanın böyük ərazilərinə gedən su xətlərində nasoslar ya azlıq təşkil edir, ya da istismara yararsız vəziyyətdədir. Məsələn, Yuxarı Qaramanlıda.

- Neftçalanın bir çox kəndlərində və qəsəbələrində yeni bağçaların, parkların, istirahət guşələrinin yaradılmasına və təmirinə ciddi ehtiyac var.

- Mədəniyyət evləri, klublar, kitabxanalar və məktəblərdə ciddi təmir-tikinti işləri aparılmalıdır.

- Qoltuq kəndində, Xol Qaraqaşlı kəndində tibb məntəqələri açılsın.

- Xol Qarabucaqda poliklinika var, amma 10 kənd əhalisinin bir doğum evi yoxdur. Sakinlər doğum evinin açılmasını tələb edir.

- Həsənabad qəsəbəsində aptekə ciddi ehtiyac var.

Yeni iş yerlərinin açılması barədə irəli sürülən təkliflər:

1-ci təklif – Neftçalanın neftlə, qazla zəngin olan bu ərazisində neftayırma zavodunun tikilməsi planlaşdırıla bilər.

- Dəniz limanı yaradıla bilər.

2-ci təklif – Neftçalanın dənizə yaxın şor torpaqları tarix boyu həm Xəzər dənizinin, həm də Kür çayının təsiri altında qidalanıb. Həmçinin torpağın altından keçən yod qarışıq su bu torpaqların əhəmiyyətinə ciddi təsir göstərir.

Bu ərazidə duz zavodu tikmək məqsədəmüvafiqdir. Burada istehsal ediləcək duz tərkibi və keyfiyyətinə görə çox fərqli, effektli olar. Bu da yeni iş yerinin açılması deməkdir.

3-cü təklif – Neftçala rayonunun keçmiş 26-lar qəsəbəsində, hazırda Mirqurbanlı kəndinin yaxınlığında Radiozavod tikilmişdi. Çox da yaxşı effekt verirdi. SSRİ-nin dağılması ilə iqtisadi əlaqələr də dağıldı və bu zavodun da fəaliyyəti dayandırıldı. Sonra bu zavod kiçik sexə çevrildi və fəaliyyətini yenidən qura bilmədi. 1993–1995-ci illərdə türk iş adamları bu zavodda motosiklet və motorolik istehsal etməyə təşəbbüs göstərsələr də, onlara şərait yaradılmadı. Burada həm motosikletlər, həm də kənd təsərrüfatı texnikalarının hissələrini istehsal və təmir edən sexlər açılması məqsədəmüvafiq olar. Bütün cənub rayonları, Neftçala, Salyan da daxil olmaqla, Azərbaycanın bütün bölgələrindən olan sahibkarlar bu sahəyə cəlb edilə və bu ideya ətrafında kənd təsərrüfatına əhəmiyyətli şəkildə gəlir gətirən yeni sahələr yaradıla bilər.

4-cü təklif – Neftçala həm də pambıqçılıq rayonudur. Vaxtı ilə bu rayonda il ərzində 26 min ton pambıq yığılırdı. Rayon ərazisində toxuculuq və tekstil fabriki

tikilə bilər. Bu məqsədlə həm yerli, həm də Türkiyədən olan iş adamları cəlb edilə bilər.

5-ci təklif – Neftçala respublikamızda balıqçılıq rayonu kimi də tanınmaqdadır. Vaxtı ilə Bankə qəsəbəsində kilkə balıqları ovlanıb və kilkə unu istehsal edən sex fəaliyyət göstərib. Bunu bərpa etmək olar.

6-cı təklif – Neftçala rayonu Xəzər dənizinin sahilində yerləşir. Bu ərazidə turizmin inkişafı üçün hər cür şərait var. Xüsusən Şirvanlı kənd yaxınlığında, Ələt qəsəbəsinə kimi uzanan dəniz sahilində turizm, istirahət mərkəzləri, otellər salına bilər. Vaxtı ilə dəniz sahilində, Həsənabad qəsəbəsinin yaxınlığında uşaqlar üçün gözəl istirahət mərkəzi "Düşərgə" fəaliyyət göstərirdi. Bu düşərgə yenidən bərpa olunarsa, yay tətili zamanı həm iş yeri, həm dincəlmək üçün gözəl məkan ola bilər. Buna nail olmaq yüzlərcə işsizin işləməsi deməkdir.

7-ci təklif – Neftçalada yerin altından çıxan yodlu su vasitəsi ilə müalicə mərkəzi açmaq olar. Mütəxəssislər cəlb edilərsə, burada böyük turizm potensialına malik yeni müalicə mərkəzi açıla bilər. Bu da yeni iş yerləri deməkdir.

Əsas məsələ işsizlikdir və yeni iş yerlərinin açılmasına ehtiyac var. Məşğulluq mərkəzləri, "DOST İş" MMC-lər işçiləri kütləvi işdən çıxarırlar. Qazilərin təqaüdləri və müavinətləri 1 ildir ki, artırılmır.

**Şahin Seyidzadə.** Təmsil etdiyim 87 saylı Qobustan–Şamaxı–İsmayıllı seçki dairəsi üzrə mövcud bir sıra vacib problemlərə toxunmaq istərdim. Qobustan, Şamaxı və İsmayıllı rayonlarında əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması və əkin sahələrini suvarmaq üçün bildirirəm ki, hazırda Qobustan rayonu içməli su təminatı

sarıdan ən çox əziyyət çəkən rayonlardan biridir. Son illərdə bu istiqamətdə mühüm addımlar atılmasına baxmayaraq, hələ də susuzluqdan əziyyət çəkən kəndlər vardır. Belə ki, ümumilikdə, 6794 nəfər əhalinin yaşadığı Xilmilli, Cəyirli və Çelov kəndlərinin içməli su təminatının yaxşılaşdırılmasına ciddi ehtiyac vardır.

Xilmilli kəndində 1948 nəfər əhali yaşayır. Kəndin 1970-ci illərdə içməli su şəbəkəsi mövcud olmuş, lakin tamamilə sıradan çıxmışdır. Kəndin içməli su təminatının həyata keçirilməsi məqsədilə "Azərsu" ASC tərəfindən müvafiq layihə sənədləri hazırlansa da, həyata keçirilməmişdir. Mənbə, Xilmilli çayından artezian qazılacaq.

Cəyirli kəndində 2780, Çelov kəndində isə 1765 nəfər əhali yaşayır və hər iki kənd bir nümayəndəlik daxilindədir. Kəndin içməli su ilə təmin edilməsi məqsədi ilə "Azərsu" ASC tərəfindən müvafiq layihə-smeta sənədləri hazırlanmışdır. Onu da qeyd edək ki, Cəyirli və Çelov kəndlərinə içməli suyun verilməsi üçün ilk növbədə Təsi xəttinin məhsuldarlığını artırmaq (transformatorun dəyişdirilməsi, nasosların gücünün artırılması) və suyun çirklənməsinə səbəb olan boruların dəyişdirilməsi zərurəti vardır.

Qobustan rayonunda əkin sahələrinin suvarılması sahəsində də vəziyyət yaxşı deyildir. Əkin sahələrinin suvarılması məqsədi ilə müvafiq dəryaçaların yaradılması əkinçiliyin inkişafı üçün zəruridir. Belə ki, Sündü, Ərəbşalbaş, Təklə və Təklə Mirzəbaba kəndləri üzrə, ümumilikdə, 400 hektar əkin sahəsinin suvarılması və həmin kəndlərdə suya olan tələbatın ödənilməsi məqsədi ilə 800 min kubmetr torpaq məcralı sututarların yaradılması və suyun nasos vasitəsi ilə 3 kilometr məsafəyə qaldırılması mümkündür.

Bundan əlavə, müasir aqroparkın yaradılması məqsədi

ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə rayonun Qaracüzlü kəndində 1000 hektar əkin sahəsinin təyinatının dəyişdirilməsi təmin edilmişdir. Suvarma üçün 11 kilometr öz axımı ilə su xəttinin çəkilməsi və 600 min kubmetr sututarın yaradılması ilə əlaqədar Nazirlər Kabineti tərəfindən vəsait ayrılaraq Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən layihə-smeta sənədləri hazırlanmışdır. Lakin layihə həyata keçirilməmişdir ki, bu da aqroparkın yaradılmasını mümkünsüz etmişdir.

Şamaxı rayonunda da içməli su təminatının yaxşılaşdırılması üçün son illərdə bu istiqamətdə mühüm addımlar atılmışdır. Görülən işlərə baxmayaraq, 6339 nəfər əhalinin yaşadığı Sabir qəsəbəsi, Mərzəndiyə və Çıraqlı kəndlərinin içməli su təminatının yaxşılaşdırılmasına ciddi ehtiyac vardır. Hər üç yaşayış məntəqəsinin su təminatının yaxşılaşdırılması üçün təklifləri qeyd edirəm.

Şamaxı rayon Sabir qəsəbəsinin içməli və texniki su təchizatında yaranmış çətinliyin aradan qaldırılması üçün Sabir qəsəbəsindən 2 kilometr məsafədə Pirsaat çayının sahilində 3 ədəd dərinliyi 70 metr olan artezian quyusunun qazılması və quyulararası məsafə 200 metr nəzərdə tutulmalıdır. Qazılacaq artezian quyularından mövcud su anbarına çəkiləcək boru xəttinin uzunluğu 2000 metr (plastik boru 6 atmosferlik olmaqla diametri 160 millimetr) olmalıdır. Qazılacaq artezian quyusu ilə mövcud su anbarı arasında yüksəklik fərqi 20 metrdir. Qazılacaq artezian quyusunda quraşdırılacaq nasos qurğusu 3 ədəd (gücü ECV 6-10-90 kubmetr/saat) nəzərdə tutulur.

Şamaxı rayon Mərzəndiyə kəndinin içməli və texniki su təchizatında yaranmış çətinliyin aradan qaldırılması üçün Mərzəndiyə kəndindən 1,2 kilometr məsafədə Pirsaat ça-

yından qidalanan tutumu təxminən 700 kubmetr olan mövcud sututarın giriş hissəsindən 125 millimetr boru xətti ilə (6 atmosferlik plastik boru) suyun çəkilişi (mövcud sututar ilə Mərzəndiyə kəndinin yüksəklik fərqi 25 metr) nəzərdə tutulur. Anbarın giriş hissəsində quraşdırılacaq nasos qurğusu 1 ədəd (gücü ECV 6-10-90 kubmetr/saat) nəzərdə tutulur və kəndin mərkəzində 30 kubmetr/saat həcmində su anbarının tikilməsinə ehtiyac vardır.

Şamaxı rayon Çıraqlı kəndinin içməli və texniki su təchizatında yaranmış çətinliyin aradan qaldırılması üçün Çıraqlı kəndindən 600–700 metr məsafədə Pirsaat çayının sahilində dərinliyi 60–70 metr olan 1 ədəd artezian quyusunun qazılması nəzərdə tutulur. Qazılacaq artezian quyusundan su anbarına qədər olan məsafə 700 metr. Plastik boru təzyiqi 10 atmosfer olmaqla diametri 63 millimetr olmalıdır (qazılacaq artezian quyusu ilə tikiləcək su anbarı arasındakı mütləq səviyyələr fərqi 55 metr). Qazılacaq artezian quyusunda quraşdırılacaq nasos qurğu 1 ədəd (gücü ECV 6-10-120 kubmetr/saat) nəzərdə tutulur. Kəndin mərkəzində tutumu 30 kubmetr olan su anbarının tikilməsinə ehtiyac vardır.

İsmayıllı rayonunun da içməli su təminatını yaxşılaşdırmaq üçün bir neçə yaşayış məntəqəsinə su xətləri və daxili şəbəkələr çəkilmişdir. Bütün görülən işlərlə yanaşı, Tircan kəndinin 1483 nəfər əhalisinin hazırda içməli su tələbatı 6 kilometr məsafədə olan su mənbəyindən təmin olunur və həmin mənbədə su ehtiyatı azaldığı üçün əhali içməli su barədə çətinlikləri olduğuna görə köməklik göstərilməsi üçün müraciət etmişdir. Qeyd edim ki, Tircan kəndi Girdiman çayının yaxınlığında yerləşir, hazırda istifadə olunan su mənbəyinin, su debitinin artırılması

məqsədi ilə mütəxəssislər tərəfindən araşdırma aparılmalıdır. Mənbənin su ehtiyatlarının artırılmasının mümkünlüyünün araşdırılması, boruların vəziyyətinin yoxlanılması, cari təmir işlərinin aparılması məqsədi ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin mütəxəssisləri tərəfindən yerində araşdırma aparılmasını məqsədəuyğun hesab edirəm.

Təhsil sahəsi üzrə vacib məsələlərə toxunaraq qeyd etmək istərdim ki, Qobustan rayonu Ərəbşalbaş tam orta məktəbi 1960-cı ildə tikilmişdir. 2010-cu ildə dam örtüyü yenidən dəyişdirilsə də, bina istismar müddətini başa vurmuş və qəzalı vəziyyətdədir. Məktəbin idman zalı, kompüter, laboratoriya və fənn kabinələri yoxdur. Məktəb qış aylarında qaz sobası ilə isidilir. Məktəbdə 379 nəfər şagird təhsil alır, otaq çatışmazlığına görə məktəb iki növbədə fəaliyyət göstərir. Qobustan rayonu Təklə kəndində 2157 nəfər əhali yaşayır, təhsil baxımından öndə gedən kəndlərdən biridir. Seçicilərin çoxsaylı müraciətlərində əsas məsələ kənddə uşaq bağçasının açılmasıdır. Hazırda kənddə 2000–2024-cü illərdə anadan olmuş uşaqların sayı 115 nəfərdir.

İsmayıllı rayonu İkinci Yeniyol, Zərgəran, Qaraqaya və Pirəbülqasım kəndlərində ibtidai məktəb fəaliyyət göstərir, şagirdlər təhsilini davam etdirmək üçün qonşu Tircan kənd tam orta məktəbinə nəqliyyat vasitəsi ilə getməli olurlar. Əvvəlki tədris illərində Elm və Təhsil Nazirliyi tərəfindən nəqliyyat xərcləri ödənilirdi, hazırda bu iş dayandırılıb. Yuxarıda adı qeyd olunan məktəblərdə şagirdlərin təhsilinin davam etdirilməsi istiqamətində lazımi tədbir görülməsi vacibdir. Hazırda Lahıc qəsəbəsi və Təzəkənd kəndində uşaq bağçasının binası olmadığı

üçün fəaliyyət göstərən bağçalar uyğunlaşdırılmış binalarda yerləşdirilib. Lahıc qəsəbəsi və Təzəkənd kəndində yeni bağça binasının tikintisinə ehtiyac vardır.

Əhali ilə keçirdiyim görüşlər zamanı yol infrastrukturunun yaxşılaşdırılması üçün bir sıra həlli vacib məsələlər qaldırılmışdır. Onları qeyd etmək istərdim. Belə ki, Qobustan rayonu Şıxzahırlı kəndi Bakı–Şamaxı–Yevlax avtomobil yolundan 3 kilometr məsafədə, Qaracüzlü kəndi isə 18 kilometr məsafədə yerləşir və hər iki kəndin yolu dövlət balansındadır, asfalt örtüyünün vurulmasına ehtiyac vardır. Bundan əlavə, Qobustan rayonu Təsi kəndinə gedən 4 kilometr yol dövlət balansındadır, asfalt örtüyünün vurulmasına ehtiyac vardır.

Şamaxı rayonunun Pirbəyli kəndinin 10 kilometr, Çıraqlı kəndinin 4 kilometr və Səfalı kəndinin 1,5 kilometr yolu dövlət balansındadır, hər üç kənd yolunun asfalt örtüyünün vurulmasına ehtiyac vardır.

İsmayıllı rayonunun əhalisi, ümumilikdə, 360 nəfər olan Həftəsov, Çəndahar, Zarat və Burovdal kəndlərini Lahıc qəsəbəsi ilə birləşdirən yolda, Girdiman çayının üzərində körpü salınması və Əhən kəndinə gedən 2,5 kilometr yolun asfalt örtüyünün vurulması üçün seçicilər tərəfindən müraciət daxil olmuşdur.

Hər birimizə məlumdur ki, təmsil etdiyim hər üç rayon qismən mülayim iqlim qurşağında yerləşir. Belə ki, Şamaxı rayonunun Sabir qəsəbəsində yeni massivdə 250 fərdi yaşayış evinə, Səfalı kəndində səkkiz mənzilə və İsmayıllı rayonu Əhən kəndində 120 fərdi yaşayış evinə təbii qaz çəkilişi üçün seçicilər tərəfindən müraciətlər daxil olmuşdur.

Bundan əlavə, bildirim ki, Qobustan, Şamaxı və İs-

mayıllı rayonlarının kəndlərinə gedən elektrik xətləri dağlıq ərazilərdən keçdiyi, güclü külək və qarlı hava şəraitində elektrik dirəkləri istismar müddətini başa vurduğu üçün əhalinin qış aylarında elektrik enerjisinə olan tələbatında fasilələr yaranır. Hazırda Qobustan rayonunun Nabur, Qaracüzlü və Qurbançı kəndlərinə gedən istismar müddətini başa vurmuş elektrik dirəklərinin yenisi ilə əvəzlənməsinə, Nabur və Qurbançı kəndlərinə gedən elektrik xəttində ayırıcının qoyulmasına, Şamaxı rayonu Pirbəyli və Zarat Xeybəri kəndlərinə gedən istismar müddətini başa vurmuş elektrik dirəklərinin yenisi ilə əvəzlənməsinə və İsmayıllı rayonu Əhən, Həftəsov, Çəndahar, Zarat və Burovdal kəndlərinə gedən istismar müddətini başa vurmuş elektrik dirəklərinin yenisi ilə əvəzlənməsinə ehtiyac olması ilə bağlı seçicilər tərəfindən çoxsaylı müraciətlər daxil olmuşdur.

Bir vacib məsələni xüsusi vurğulamaq istəyirəm. Qobustan rayonunun Ərəbşahverdi, Xilmilli, Nabur, Bəklə, Sündü, Cəyirli, Çelov, Təklə, Təklə Mirzəbaba və Ərəbşalbaş kənd məktəbləri, Xilmilli və Çuxanlı uşaq bağçaları, Şamaxı rayonunun Y.Məmmədəliyev qəsəbəsi, Dəmirçi, Səfalı, Avaxıl, Pirbəyli, Qızmeydan, Hacılı və Əhmədli kənd məktəbləri və İsmayıllı rayonunun Lahıc qəsəbəsi, Zərnava, Sərdahar, Müdri, Burovdal, Yuxarı Cülyan, Əhən, Tağlabiyan və Zeyvə kənd məktəbləri dağ yaşayış ərazilərində yerləşdiyi üçün hava temperaturu tez soyuduğuna görə, noyabrın 15-də təhsil müəssisələrinin istilik sisteminin qış rejiminə keçməsi ilə əlaqədar xüsusi ilə bağçalarda və ibtidai siniflərdə təhsil alanların çətinlik çəkdiyi seçicilər tərəfindən bildirilmişdir. Aidiyyəti dövlət qurumlarından növbəti tədris illərində təhsil müəssisə-

lərinin qış rejiminə keçid zamanının əvvələ keçirilməsinin nəzərə alınmasını xahiş edirəm.

## MÜNDƏRİCAT

27 noyabr 2024-cü il ............................................................ 3

Edilməmiş çıxışların mətnləri................................................ 99

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

11-ci cild

27 noyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 6,5. Sifariş 5. Tiraj 150.